**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Milli iqtisadiyyatın inkişafında aqrar sənaye kompleksinin rolu” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Aslanov İsmayıl Nemət**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d, dos, Əhmədov Fariz Saleh**

**"___" ____________ 2019-cu il**

**" Milli iqtisadiyyatın inkişafında aqrar sənaye kompleksinin rolu"**

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060404 "İqtisadiyyat"**

**İxtisaslaşma: İqtisadiyyatın tənzimlənməsi**

**Qrup: 20**

**Magistrant**

**Aslanov İsmayıl Nemət**

**________________ imza**

**Elmi rəhbər**

**i.e.n.,dos.Cabbarova Aynur İmran**

**________________imza**

**Proqram rəhbəri**

**i.ü.f.d.b.m. Hümbətova Suqra İnqilab**

**________________imza**

**Kafedra müdiri**

**i.e.d. prof. Kəlbiyev Yaşar Atakişi**

**__________________imza**

**BAKI-2019**

**The role of agrarian industry in the development of national economy**


**Summary**

**The relevance of the research. The role of agrarian field is very essential in the formation of the national economy. The essential reason for this is that the formation of the country's overall GDP (gross domestic product), food security, solving the problem of unemployment, social and other issues take a main place. Therefore, research on the topic is one of the topical issues.**

**The aim and tasks of the research. The purpose of the study is to investigate the country's agriculture and conduct statistical analyzes. The below given duties are included:**

**Being determined the position of the agrarian sector in the economy, the provision of food security by determining with statical source, being determined the level and dynamics of products across the country, analysis the current state of investments in agriculture, being defined the perspective directions of development of the agrarian sector.**

**Research methods. Theoretical and mathematical-statistical methods were used in the dissertation work. By means of these methods, questions on the chapters were investigated and certain conclusions and recommendations were made.**

**The information database of the research. In the study, the statistical sources of the Statistical Committee, the Ministry of Agriculture and other local and foreign bodies, Strategic Road Map targets and books, scientific articles and internet resources which were published on this field were used.**

**Research restriction. It is possible to indicate that the inflow of investments in the restriction development of the agrarian sector is small and risky. This leads to a delay in the future development of the existing industry.**

**The results of the study. Being problems in agrilculture such as food security, investment, labor productivity has been determined in the results of all chapters of reserach and strategic targets have been taken on this field.**

**Scientific-practical significance of the results. The results obtained in the dissertation work can direct for taking important measures. These results are appropriate for the development of agricultural fields.**

**Key words: agrarian sector, food security, resources, labor productivity**

# İXTİSARLAR və İŞARƏLƏR

| | |
|---|---|
| **ASC** | Açıq Səhmdar Cəmiyyəti |
| **ASK** | Aqrar Sənaye Kompleksi |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **FAO** | Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı |
| **SYX** | Strateji Yol Xəritəsi |

## MÜNDƏRİCAT

**GİRİŞ**.......................................................................................................... 7

**I Fəsil MİLLİ İQTİSADİYYATIN FORMALAŞMASI VƏ İNKİŞAFINDA AQRAR SƏNAYƏ KOMPLEKSİNİN ROLU VƏ YERİ**.. 10

1.1. Aqrar sənaye kompleksinin xüsusiyyətləri, tərkibi və onun ölkə iqtisadiyyatının inkişafında yeri................................................................... 10

1.2. Kənd təsərrüfatı – aqrar sənaye kompleksinin əsas sahəsi kimi............... 13

1.3. Ölkənin ərzaq təhlükəsizliyi ilə təmin edilməsində aqrar sferanın rolu............................................................................................................. 17

**II Fəsil AZƏRBAYCAN RESPUBLİKASINDA KƏND TƏSƏRRÜFATINDA MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ**...................... 21

2.1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının səviyyə və dinamikasının təhlili........................................................................... 21

2.2. Kənd təsərrüfatına cəlb edilən investisiyaların müasir vəziyyətinin təhlili.......................................................................................................... 37

**III Fəsil AZƏRBAYCAN RESPUBLİKASINDA ASK – NIN İNKİŞAF PERSPEKTİVLƏRİ**.......................................................................... 48

3.1. Azərbaycan Respublikasında ASK – nin inkişafına yönəldilmiş tədbirlər..................................................................................................... 48

3.2. Azərbaycan Respublikasının kənd təsərrüfatı sektorunun inkişafı problemlərinin həlli yolları və perspektivləri............................................. 58

**NƏTİCƏ VƏ TƏKLİFLƏR**........................................................................ 62

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**......................................................... 66

Əlavələr........................................................................................................ 69

Cədvəllərin siyahısı...................................................................................... 72

# Giriş

**Mövzunun aktuallığı.** Aqrar sənaye kompleksi iqtisadi baxımdan ölkənin aparıcı sahələrindən biri olmaqla istər iqtisadi sahədə, istərsə də sosial və digər sahələrdə böyük əhəmiyyətə malikdir. Dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələri üçün də aqrar təsərrüfat mühüm əhəmiyyət kəsb edir. Aqrar sənaye kompleksi adından da göründüyü kimi kompleks tədbirləri özündə əks etdirməklə iqtisadiyyatın digər sahələri ilə : sənaye, xidmət, nəqliyyat və s. sıx əlaqəlidir. Bu sahə özündə təşkil etdiyi qruplarla ölkədaxili işsizlik probleminin həlli ilə yanaşı, ixrac əməliyyatları vasitəsilə ÜDM artımına və bilavasitə iqtisadiyyatın dinamik inkişafına da səbəb olur. Buradan anlaşılır ki, aqrar sənaye həm də sosial-iqtisadi inkişafa təkan verir.

Məlumdur ki, ölkə iqtisadiyyatının əsas gəlir mənbəyi neft iqtisadiyyatı üzərinə qurulmuşdur və ondan gələn gəlirlər hesabına digər sahələrin inkişafı reallaşır. Müasir Azərbaycan iqtisadiyyatının qarşısında duran hədəf isə neft sektorundan əldə edilən gəlirlər hesabına qeyri-neft sektorunu inkişaf etdirməkdir ki, aqrar kompleks də onlardan biridir. Aqrar sənaye kompleksinin inkişafı üçün isə sahə üzrə tədqiqat işlərinin aparılması və mövcud qanunvericilik bazasının müsbət yönümlü dəyişdirilməsi və ya tətbiqi zəruridir.

Eyni zamanda dünya iqtisadiyyatına inteqrasiya edən Azərbaycanın mövcud aqrar təsərrüfatı qənaətbəxş hesab oluna bilər. Nəzərə almaq lazımdır ki, bazar iqtisadiyyatı şəraitində inkişaf etmiş ölkələr dünya bazarında əhəmiyyətli mövqe tututblar, buna görə də təsərrüfatın intensiv qurulması və inkişaf etdirilməsi prioritet məsələlərdəndir. Azərbaycanda hal-hazırda Strateji Yol Xəritəsinə uğun olaraq müəyyən dövrlər üzrə strateji hədəflər qarşıya qoyulmuşdur. Bu hədəflərin əsasında ölkənin kənd təsərrüfatı sektorunun araşdırılması və problemlərin müəyyən edilməsi, ölkə əhalisinin zəruri məhsullarla özünü təminetmə səviyyəsinin yüksəldilməsi, xarici ticarətlə əlaqəli ixrac əməliyyatlarının artması yönündə sənaye sahələrinin inkişafı, yerli məhsulların keyfiyyət xüsusiyyətlərinin artırılması, sahə üzrə əmək məhsuldarlığının artırılması və s. olaraq vəzifələr durur.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi.** Aqrar sənaye kompleksinin milli iqtisadiyyatın inkişafının nəzəri və praktiki öyrənilməsi üşün xeyli sayda elmi tədqiqatlar aparılmış, kitab və məqalələr dərc olunmuşdur. Amma inkişaf edən bazar münasibətləri sistemində dünya ölkələrinin, xüsusilə inkişaf etmiş ölkələrin təcrübəsini tətbiq etmək üçün yeni tədqiqatların aparılması və beynəlxalq standartlara uyğunlaşdırılması lazımdır. Bu amillər nəzərə alınması dissertasiya işinin seçilməsində əsasdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi aqrar sənaye kompleksinin ölkə iqtisadiyyatındakı rolunu araşdırmaq, onun perspektiv inkişafının təmin edilməsi və mövcud problemlərinin həlli üçün tədbirləri müəyyənləşdirmək və əsaslandırmaqdır. Tədqiqat işinin vəzifələrinə isə aşağıdakıları göstərə bilərik:

- aqrar sənaye kompleksinin ölkə iqtisadiyyatının inkişafındakı rolunu müəyyən edilməsi
- kənd təsərrüfatının aqrar sənaye kompleksindəki əhəmiyyətini araşdırılması
- kənd təsərrüfatının ölkənin ərzaq təhlükəsizliyi ilə təmin edilməsindəki payının statistik göstəricilərlə təhlil edilməsi
- ölkədə kənd təsərrüfatı məhsullarının səviyyə və dinamikasının rəsmi statistik məlumatlarla qiymətləndirilməsi
- əsas növ ərzaq məhsulları ilə özünü təminetmə və idxaldan asılılıq səviyyəsinin qiymətləndiriməsi
- kənd təsərrüfatı müəssisələrinin və fərdi sahibkar müəssisələrinin məhsullar üzrə satış rentabelliyinin qiymətləndirilməsi
- kənd təsərrüfatında investisiya qoyuluşlarının qiymətləndirilməsi
- əmək məhsuldarlığının artırılmasının araşdırılması

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti aqrar sənaye kompleksinin tərkib hissəsi olan kənd təsərrüfatı, predmeti isə aqrar sektorun milli iqtisadiyyatın inkişafındakı roludur.

**Tədqiqat metodları.** Tədqiqat işində nəzəri metodlarla yanaşı, riyazi-statistik metodlardan istifadə edilmişdir. Aqrar sənaye kompleksinin ölkə iqtisadiyyatındakı yeri, ərzaq təhlükəsizliyinin təmini və mövcud vəziyyəti analiz edilərək müəyyən nəticə və təkliflər alınmışdır.

**Tədqiqatın informasiya bazası.** Tədqiqatın informasiya bazasını Dövlət Statistika Komitəsinin, Kənd Təsərrüfatı Nazirliyinin, kənd təsərrüfatının Strateji Yol Xəritəsinin, tədqiqatda araşdırılmış kənd təsərrüfatı və fərdi sahibkar müəssisələrinin statistik məlumatları, həmçinin elmi nəşrlər, mətbuatda dərc edilən elmi məqalələr, yerli və xarici internet informasiya resursları təşkil edir.

**Elmi-praktiki nəticələr.** Elmi-praktiki nəticələr aşağıdakılardan ibarətdir:

- Ölkənin aqrar sektoru statistik məlumatlar əsasında təhli edilmiş və onun inkişafı üçün müəyyən təkliflər verilmişdir
- Ərzaq təhlükəsizliyinin təmin edilməsi və yerli bazarların inkişafı üçün amillər nəzərdən keçirilmişdir
- Strateji Yol Xəritəsinin planı əsasında qarşıya qoyulan hədəflər araşdırılaraq konkret tədbirlər müəyyən edilmişdir
- ölkənin kənd təsərrüfatının regional inkişafı və xarici bazarlara çıxışının asanlaşdırılması istiqamətində tədbirlərə baxılmışdır

**Nəticələrin elmi-praktiki əhəmiyyəti.** Tədqiqatın elmi-praktiki əhəmiyyəti kənd tsəsərrüfatının mövcud vəziyyəti araşdırılaraq potensial inkişaf istiqamətləri və problemləri müəyyən edilir. Bunun nəticəsi kimi kənd təsərrüfatının intensiv inkişafının təmin edilməsi, işsizlik, əhalinin məhsullarla təminatı və s. məsələlərin həlli üçün yeni nəticə və təkliflər verilir. Bunun nəticəsində kənd təsərrüfatının inkişaf etdirilməsində çoxsaylı nəzəri təkliflər yaranır.

**Dissertasiya işinin strukturu və həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və təkliflər, istifadə edilmiş ədəbiyyat, əlavələr və cədvəllərin siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi 72 səhifədən ibarət olmaqla, 21 cədvəl və 32 ədəbiyyatdan istifadə edilmişdir.

# I Fəsil MİLLİ İQTİSADİYYATIN FORMALAŞMASI VƏ İNKİŞAFINDA AQRAR SƏNAYƏ KOMPLEKSİNİN ROLU VƏ YERİ

## 1.1. Aqrar Sənaye kompleksinin xüsusiyyətləri, tərkibi və onun ölkə iqtisadiyyatının inkişafında yeri

Aqro latın sözüdür və torpaq münasibətləri, torpaqla əlaqəli istehsal sahələrini, həmçinin bu sahələr üzrə formalaşan istehsal münasibətlərini əhatə edir. Aqrar sfera iqtisadi kateqoriya olub kənd təsərrüfatı məhsullarının istehsalı və bu istehsalla digər sahələr arasındakı qarşılıqlı əlaqələri ifadə edir. Buraya kənd təsərrüfatı məhsullarının istehsalı torpaq mülkiyyət formaları eləcə də kəndin sosial-iqtisadi inkişaf problemlərini aid etmək olar. Aqrar sferanın kökündə isə kənd təsərrüfatı istehsalı onun forma və metodları inkişaf qanunauyğunluqları dayanır. Müasir dövrdə aqrar sferanının inkişafını kənd təsərrüfatı iqtisadiyyatının yüksək səviyyədə qurulması və onun obyektiv iqtisadi qanunlara əsaslanmasında görmək olar. Aqrar sferanın inkişafı isə dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Bunun başlıca səbəbi insan cəmiyyətinin yaşaması üçün mühüm əhəmiyyət kəsb edən ərzaqla, sənaye sahələrini isə xammalla təchiz edən sahədir. Əhalinin ərzaq məhsullarına olan fizioloji tələbatının ödənilməsi isə ölkə iqtisadiyyatının əsas məsələlərindən biri olmaqla bu barədə Prezidentin 2008- ci il 25 avqust tarixli "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təmini" ilə əlaqəli sərəncamı aqrar sahənin necə böyük vəzifə daşıdığını sübut edir. Qəbul edilmiş dövlət sənədinin əsas məqsədi aşağıdakılardan ibarətdir:

- ərzaq məhsulları istehsalını artırmaq
- əhalinin ərzaq məhsulları ilə təmini
- ərzaq təminatı sisteminin institusional inkişafı
- sahibkarlığın inkişafı və mühitinin yaxşılaşdırılması

Bunlar nəzərə alınaraq dövlət son dövrlərdə aqrar sektorda dövlət fəaliyyətinin artırılması həmçinin meliorasiya və irriqasiya işlərinin görülməsi aqrar sferanın texniki bazasının yüksəldilməsi ərzaq məhsulları ehtiyyatlarının yaradılması və

bununla bağlı müvaviq avadanlıqların alınması ilə bağlı müəyyən vəsait ayırmaları həyata keçirmişdir. Onu da qeyd edə bilərik ki, bu sahənin inkişafı ölkə də digər iqtisadi sahələrinin inkişafı və istiqaməti üçün də əhəmiyyətli rol oynayır. İqtisadiyyatın bu sahəsi ehtiyyacları ödəməklə yığımın yaradılmasında başlıca amillərdən biridir və istehlak şeylərinə olan tələbatın əksər hissəsinin ödənilməsində əhəmiyyətli rol oynayır.

Aqrar iqtisadiyyat aqrar sferada iqtisadi qanunların yaranma formalarını və bu sahədəki mexanizmlərin kənd təsərrüfatının inkişafına təsirini öyrənir. Ölkədə aparılan iqtisadi islahatlar aqrar sahəyə də öz təsirini göstərmişdir. Müxtəlif yönlü mülkiyyət və təsərrüfatçılıq formalarının inkişafı aparılan islahatların nəticəsi kimi misal göstərilə bilər. Kənd təsərrüfatı iqtisadiyyatı bir sahə elmidir və bazar iqtisadiyyatı şəraitində iqtisadi münasibətlər sistemini açmaqda mühüm amildir. Rayonların və təsərrüfatın ixtisaslaşdırılması iqtisadi şəraitin diferensiasiyası əsasında aparılır və bu diferensiasiya mexanikləşdirmə, kimyalaşdırma və meliorasiya tədbirləri zamanı nəzərə alınır. Daha dəqiq desək hər bir rayonun istər texnika cəhətdən, istər meliorasiya cəhətdən bitki sortları və heyvan cinsləri baxımından tələbləri həmin rayonun iqtisadi-coğrafi şərtləri baxımından müxtəlifdir. Bu müxtəliflik iqtisadiyyatın tənzimlənməsində eləcə də məhsul hasilatı və istehsalın səmərəliliyinin müəyyənləşdirilməsində nəzərə alınır. Buradan görünür ki, aqrar iqtisadiyyat ölkə iqtisadi sisteminin vacib hissələrindən biridir və daim diqqət mərkəzində olmaqla dinamik inkişafı təmin edilməlidir. Əvvəldə qeyd etdiyimiz kimi o, ərzaq təhlükəsizliyi və istehsalın xammalla təchizi baxımından əvəssiz rol oynayır. Aqrar Sənaye Kompleksi üzrə ölkə üzrə görülən işlərin nəticəsi üzrə aşağıdakıları misal göstərə bilərik:

- bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq özəlləşmə işləri görülmüşdür
- aqrar sahibkarlığın sahəsi genişlənmiş və istehsalın maddi-texniki bazası inkişaf etmişdir

Lakin qeyd etmək lazımdır ki, tədbirlərin hər biri dövlət əhəmiyyətli olmasına baxmayaraq bütövlükdə ASK qarşısında mühüm və təxirəsalınmaz tədbirlər hələ

də qalmaqdadır. Bazar iqtisadiyyatı şəraitində aqrar sferanın intensiv inkişafının təmin olunması üçün struktur dəyişikliklər daim aparılmalı ərzaq və digər strateji məhsulların istehsalı artırılmalı və emalı prosesi həyata keçirilməsi üçün əsaslı tədbirlər görülməlidir. ASK sahələri üzrə xüsusən taxılçılıq pambıqçılıq, üzümçülük, tərəvəzçilik, maldarlıq və qoyunçuluq sahələrinin imkişafına üstünlük verilməlidir. Respublikada mövcud 1.5 milyon hektar əkin sahəsi 2 milyon hektara çatdırılmalı və eləcə də heyvandarlıq və bitkiçilik məsulları üzrə istehsalın artırılması dövlətin aqrar siyasətinin əsas məqsədi olmalıdır. Taxılçılığın inkişafına əhəmiyyət verilməlidir və əkin sahəsinin 60%-ə qədəri taxıl əkini üçün istifadəyə verilməli, heyvandarlığın yem bazasınıın möhkəmləndirilməsi üçün əkin sahələrinin genişləndirilməsi istiqamətində tədbirlər görülməlidir. Tədbirlər sisteminə aşağıdakıları misal göstərmək olar (Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi):

- aqrar təsərrüfatın fəaliyyətdə olan iqtisadi mexanizminin təkmilləşdirilməsi və bazar iqtisadiyyatı şəraitində yenidən qurulması
- ölkə əhalisinin ərzaq və ekoloji təhlükəsizliyinin təmini
- regionlarda sosial iqtisadi inkişafa nail olmaq
- kənd təsərrüfatı məhsulları istehsalı və emalı üzrə zəruri hesab edilən şəraiti yaratmaq
- özəlləşdirmə üzrə dövlət proqramlarının həyata keçirilməsi və onun fəaliyyətinin inkişafına dəstək
- aqrar sahədə yeni  iqtisadi və mülkiyyət formalarının həyata keçirilməsi bunula məhsul istehsalının potensialının artırılması
- inkişaf etmiş bazar ölkələrinin təcrübələri əsasında onların aqrar sahəyə tətbiqini həyata keçirmək
- Aqrar sferaya xarici investisiyaların cəlbini həyata keçirmək
- regionlarda mövcud potensialdan səmərəli istifadə etmək
- emal müəssisələrini xammal regionları ilə yaxınlaşdırılması nəticəsində məşğulluğun artırılması.

Eyni zamanda ərzaq ehtiyyatlarının artırılması məqsədilə çoxukladlı iqtisadiyyatın formalaşdırılması kəndli təsərrüfatlarının üstün inkişafının təmin edilməsi aqrar sferanın iqtisadiyyatı qarşısında əsas məsələ kimi durur. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi elminin müasir tələblərə uyğun qurulmasını təmin etmək üçün əməyin təşkilinin müasir formalarından olan istehsal kooperativlərinin yaradılması və xırda kəndli təsərrüfatlarının orada birləşdirilməsi mühüm məsələlərdən biridir. Bunun üçün isə qanunvericilik aktları və hüquqi normativ bazanın yaradılması lazımdır. Dünya təcrübəsi göstərir ki, müasir aqrar istehsalı təşkilinin ən mütərəqqi formalarından biri məhz budur.

### 1.2. Kənd təsərrüfatı – aqrar sənaye kompleksinin əsas sahəsi kimi

Kənd təsərrüfatı aqrar sənaye kompleksinin əsas sahələrindən biri olmaqla ölkə əhalisinin ərzaq və ekoloji təminatını həyata keçirmək, həmçinin regionlarda sosial-iqtisadi inkişafın sürətləndirilməsi emal sənayesi üçün xammal istehsalı, əkinçilik və heyvandarlıq məhsullarının istehsalını müasir texnologiyalar əsasında təşkil etmək, kənd təsərrüfatı məhsulları və emal arasında yaranmış disproporsiyaları aradan qaldırmaq, kənd təsərrüfatı məhsulları istehsalı və emalı üçün əlverişli şəraiti yaradan mühüm sahədir. Bütün sadalananlar hələ tam həll edilməsə də son dövrlər kənd təsərrüfatı sahəsində görülən əsaslı tədbirlər ölkədə ərzaq məhsullarının istehlak səviyyəsini artırmışdır. Kənd təsərrüfatının aqrar sənaye kompleksinin əsas sahəsi olduğunu müəyyən etməyin əsas sahələrindən biri kimi ərzaq məhsullarının adambaşına istehlakı və özünü təminetmə səviyyəsi göstəricilərinə nəzər yetirərək müəyyən etmək mümkündür. Burada özünü təminetmə səviyyəsi ölkədə istehsal sahəsinin hansı səviyyədə inkişaf etməsini və idxaldan asılılıq dərəcəsini, eyni zamanda ixracın mövcud potensial səviyyəsini də əks etdirir.

2015-2018 statistik məlumatlarına əsasən əhalinin istehlakında əsas yer tutan ət və ət məhsullarının istehlakı 6.3 kq, bütün növ tərəvəz 2.4 kq, balıq və balıq məhsulları 0.3 kq artım göstərmişdir (https://https://www.stat.gov.az, 2018).

**Cədvəl 1. 2015-2018-ci illərdə əsas növ ərzaq məhsullarının adambaşına istehlakı və özünütəminetmə səviyyəsi**

| | 2015 | 2016 | 2017 | 2018* |
|---|---|---|---|---|
| **Adambaşına istehlak, kq/il** | | | | |
| Dənlilərin cəmi (çəltik daxil edilmir) | 9,8 | 9,9 | 10,0 | 9,8 |
| ondan buğda | 7,9 | 8,4 | 8,4 | 8,3 |
| qarğıdalı | 1,8 | 1,5 | 1,3 | 1,4 |
| sair növ dənlilər | 0,12 | 0,03 | 0,23 | 0,13 |
| Paxlalılar | 3,3 | 3,0 | 3,7 | 3,9 |
| Kartof | 71,6 | 74,9 | 75,2 | 71,3 |
| Bütün növ tərəvəz | 110,4 | 105,1 | 104,1 | 112,8 |
| Pomidor | 41,8 | 38,4 | 41,7 | 39,1 |
| Bostan məhsulları | 43,6 | 41,3 | 39,1 | 35,3 |
| Meyvə və giləmeyvə | 72,7 | 70,4 | 71,2 | 73,4 |
| Qoz və fındıq | 3,1 | 2,7 | 2,8 | 3,5 |
| Nar | 15,0 | 13,3 | 13,9 | 14,5 |
| Üzüm | 9,9 | 8,8 | 9,4 | 10,2 |
| Bütün növ ət və ət məhsulları | 33,5 | 35,5 | 37,4 | 39,8 |
| Süd və süd məhsulları | 246,2 | 236,2 | 238,1 | 240,2 |
| Yumurta, ədəd | 154 | 156 | 158 | 153 |
| Balıq və balıq məhsulları | 7,0 | 7,6 | 7,9 | 7,3 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

Burada azalma müşahidə edilən süd və süd məhsulları istehlakıdır ki, bunun da əsas səbəbi kimi sahə üzrə sənaye müəssisələrinin istehsal gücü ilə izah etmək olar. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı Azərbaycan ÜDM-nin 5.3%-ni təşkil edir, həmçinin xalq istehlakı mallarının 3/4 kənd təsərrüfatı hesabına ödənilir. Kənd təsərrüfatında istehsal olunan malların 50% xammal kimi istifadə edilir. Yüngül yeyinti və bir sıra digər sahələr üçün xammal istehsalçısı, sənaye mallarının isə istehlakçısı kimi çıxış edir. Buradan demək olar ki, sənaye sahələri və kənd təsərrüfatının fəaliyyət göstərmələri onların qarşılıqlı əlaqələrindən asılıdır. Kənd təsərrüfatının özünəməxsus bir sıra xüsusiyyətləri vardır ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olanların bunları nəzərə alması vacibdir. Belə ki, kənd təsərrüfatının əsas vasitəsi torpaqdır və onun düzgün və səmərəli istifadəsi keyfiyyətinə təsir göstərir. Lakin torpağın müəyyən sahələr üzrə yerləşməsi və məhsuldarlığı kəskin fərqlənir. Bu isə diferensial renta mövcudluğu yaradır və daha məhsuldar torpaq sahələrinə məxsus sahibkar üçün əlavə qazanc əldə etməsində böyük rol oynayır.

Kənd təsərrüfatı iqlim-torpaq şəraiti nəzərə alınmaqla müxtəlif ərazilərdə yerləşdirilir. Bu şəraitin nəzərə alınması istehsal prosesinin mexanikləşdirilməsi, kimyalaşdırılması, heyvan və bitki cinslərinin seçilməsi zamanı vacibdir. Bu amil isə bazarın konyukturna böyük təsiri var. Kənd təsərrüfatının mövsümi xarakterlərindən biri kimi onun iş vaxtının istehsal dövrü ilə uyğun gəlmədiyini deyə bilərik. Bu böyük fərqlilik ən çox payız aylarında dənli bitkilərin yetişdirilməsi zamanı özünü göstərir. Əkin adətən iyul-avqust aylarında başlasa da məhsul yığımı isə gələn il üçün iyul-avqust aylarına təsadüf edir. Bu müddət ərzində iş vaxtı qurtarır və yenidən bir neçə dəfə bərpa olunur. Mövsümi xarakter istehsalın təşkili, texnika və əmək ehtiyyatlarından istifadəyə, həmçinin emal sənayesinə də böyük təsir göstərir. Kənd təsərrüfatında texnoloji proseslər bioloji amillərdən, canlı orqanizmlərdən asılı olduğu halda sənaye sahəsində isə kimyəvi, fiziki və mexaniki proseslərlə bağlıdır. Kənd təsərrüfatında əmək cisimləri (toxum) bir yerdə olduğu halda istehsal alət və vasitələri yer dəyişir (traktor, kombayn). Burada ictimai əmək bölgüsü sənayeyə nisbətən fərqli təzahür edir, regionun təbii iqtisadi şəraiti nəzərə alınmaqla müəyyən istehsal sahələri üzrə ixtisaslaşır. Kənd təsərrüfatında məhsullara olan tələbat qeyri-elastikdir. Əksər kənd təsərrüfatı məhsulları bazarda yüksək rəqabət yaradırlar, bu isə ayrı-ayrı mal istehsalçıların bazar qiymətlərinə təsirinə imkan vermir və təbii ki, belə olan halda inhisar üçün şərait yaranır. Azərbaycanda kənd təsərrüfatı və ərzaq məhsullarının müqayisəli üstünlükləri göstərir ki, müvafiq məhsullar üzrə istehsal potensialının artırılması daxili bazarda idxal məhsullarının əvəzlənməsinə və rəqabətqabiliyyətli malların ixracının genişləndirilməsinə şərait yaradır. Lakin bazarın inkişafı və əlverişli şərtlərlə bazara çıxış məsələləri strateji önəmə malikdir və bu istiqamətdə dəyişikliklərə, o cümlədən, bazar infrastrukturunun təkmilləşdirilməsinə ehtiyyac var. Mövcud istehsalçılar və emalçılar arasında qarşılıqlı əməkdaşlıq arzuolunan səviyyədə deyil, bu da aqrobiznesin bütünlükdə inkişafına maneə törədir.

Ölkədə kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin yaradılması bir sıra məhsulların- tütün, süd və un məhsullarının idxaldan asılılığını azaldır. Aparılan

təhlillərin nəticəsi kimi idxalı əvəz edən kənd təsərrüfatı məhsulları və emal sənayesi məhsulları müəyyən edilərək qruplaşdırılmışdır: 1) heyvandarlıq məhsulları-ət, süd, quş əti 2) dənli paxlalılar-buğda qarğıdalı 3) sənaye təyinatlı məhsullar-pambıq, tütün, şəkər çuğunduru, çay, dərman bitkiləri, barama, yun, gön dəri və s. Ortamüddətli dövr üçün idxalın əvəzlənməsi məqsədi ilə sənaye məhsulları üzrə emalın inkişafı nəzərdə tutulur. Beləliklə, idxalı əvəz edən kənd təsərrüfatı məhsulları üzrə qruplar müəyyənləşdiriləcək və onların itehsal və emal potensialı gücləndiriləcəkdir. Tədbirlərin reallaşdırılması hesabına idxalın əvəzlənməsi üzrə müəyyən edilən məhsulların aşağıdakı formada artmasında əsas amildir ( Azərbaycan Respublikası kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi):

- intensiv ferma modeli hesabına iribuynuzlu heyvanların baş sayının 10% azaldılması, südün məhsuldarlığının 50% artması
- ət istehsalının 20%, süd istehsalının 30% artımı
- ət və süd məhsullarının emalı sənayesində istehsalın 25% artımı
- ərzaq üçün istifadə olunan buğdanın yüksək məhsuldarlıq və keyfiyyət göstəriciləri
- çay plantasiyalarının 2 dəfə genişləndirilməsi
- tütün idxalının 50% azaldılması
- pambıq istehsalı və emalı sahəsində istehsal həcminin 4 dəfə artırılması

Həmçinin bu tədbirlər 2020-ci ildə real ÜDM-də artım ilə əlaqədar təsiredici rola malikdir. Yerinə yetirilən layihələrin 2020-ci ildə real ÜDM-də birbaşa təsirinin 70 milyon manat, dolayı təsirinin 60 milyon manat, ümumilikdə isə 130 milyon manat olması proqnozlaşdırılır. Kənd təsərrüfatı məhsullarının emalı və istehsalı burada xüsusi çəkiyə malik olacaqdır. Ümumi nəticə olaraq 2018-ci ilin sonuna kimi yeni aqroparkın və biznes inkubatorunun yaradılması və fəaliyyətə başlaması üçün bütün tədbirlərin yekunlaşdırılması nəzərdə tutulmuşdur. 2020-də bir aqroparkın real ÜDM-də birbaşa təsiri 135 milyon manat, dolayı təsiri isə 220 milyon manat, ümumilikdə 355 milyon manat olması gözlənilir.

### 1.3. Ölkənin ərzaq təhlükəsizliyi ilə təmin edilməsində aqrar sferanın rolu

Aqrar sferanın inkişafı kənd yerlərində məşğulluğun artması və bu sahədə çalışan əhali qrupu üzrə gəlirlərin formalaşması ilə yanaşı ölkədə ərzaq probleminin həll edilməsində də əhəmiyyətli rola malikdir. Son dövrlər dünya bazarlarında eləcə də respublikamızda müşahidə olunan qiymət artımı əhalinin aztəminatlı hissəsinin ərzaqla təminatına və həyat səviyyəsinə mənfi təsir göstərir. Buna görə daxili ərzaq bazarının idxaldan asılılığını azltmaq və əhalinin ərzaq məhsullarına olan tələbatını yerli istehsal hesabına təmin edilməsi dövlətin prioritet məsələlərindəndir.

Ölkə iqtisadiyyatının güclənməsində qida sənayesinin rolu əvəzolunmazdır. Qida sənayesinin inkişafı yerli iş yerlərinin açılması ilə yanaşı ölkənin mövcud torpaq ehtiyyatlarından səmərəli yararlanması deməkdir. Əhalinin iqtisadi baxımdan güclənməsi ilə yanaşı həmçinin onların rifah halının yaxşılaşmasına səbəb olan amildir. Qida sənayesinin əsas mənbələrindən olan kənd təsərrüfatı onun əsasını təşkil etməklə əkinə yararlı torpaq sahələrindən səmərəli şəkildə istifadə olunması, insanlar üçün iş imkanı yaradır və torpaqdan alınan məhsulun qida sənayesində istifadə olunmasına səbəb olur. Sahənin ölkə üçün verdiyi səmərələrdən biri də onun digər dövlətlərdən asılılığının aradan qaldırılmasında rol oynamasıdır. Xarici övlətlərdən alınaraq yerli bazarlara buraxılan məhsulların maliyyə baxımından baha başa gəlir, qida sənayesi isə bir növ yerli istehsal hesabına bu bahalaşmanın qarşısını alır. Kənd təsərrüfatında aparılan ciddi struktur islahatlar dövlət mülkiyyətində az sayda damazlıq, toxumluq və bir sıra təsərrüfatlar istisna olmaqla bütün kənd təsərrüfatı müəssisələrinin həmçinin kolxoz və sovxozların ləğvinə səbəb olmuş, onların əmlakı təsərrüfat üzvləri arasında bölüşdürülmüşdür. Kənd təsərrüfatında kəndli-fermer mülkiyyətinin formalaşması kənd təsərrüfatında işlərin daha yaxşı təşkili və aqrar bölmənin inkişafı üçün əlverişli şərait yaradır. Qeyd etmək lazımdır ki kənd təsərrüfatı cəmiyyətin sosial-iqtisadi sabitliyinin təmin olunmasında əhəmiyyətli təsirə malikdir. Bilavasitə ərzaq təhlükəsizliyinin təmin edilməsi kənd təsərrüfatında olan

problemlərin aradan qaldırılması ilə asılıdır. Aqrar bölmənin qlobal maliyyə böhranından minimum risklə çıxarılması kəndlərin sosial inkişafında istehsalçıların gəlirlərinin artırılmasında və ərzaq bazarında yerli məhsulların çəkisinin artmasında əhəmiyyətli rola malikdir.

Ərzaq təklifinin adekvat bazar tələbi ilə uyğunlaşması üçün ölkə vətəndaşlarının hər bir zaman ərzaq məhsulları ilə təminatını təşkil etmək lazımdır. Bunun vasitəsilə ictimai resursların aztəminatlı vətəndaşlara yönəldilməsi həm də ödəmə qabiliyyətli tələbin formalaşdırılması ilə həyata keçirilir. Ərzaq təklifi kəmiyyətcə qənaətbəxş olmalı və keyfiyyətcə müasir tələblərə cavab verməli, ölkə əhalisini ekoloji təmiz məhsullarla təmin etməlidir. Bunun üçün isə keyfiyyət və kəmiyyətə nəzarət sistemi qurulmalıdır. Fermer və ailə təsərrüfatları şəraitində davamlı istehsala nail olmaq üçün məhsuldarlığın yüksəldilməsi əsas məsələdir. Bununla bağlı aqrotexniki problemlər arşdırılarkən əkinçilikdə və heyvandarlıqda yüksək məhsuldar toxum və cins qaramalın tələblərinə uyğun servis xidmətin və yem bazasının olması vacibdir. Kənd təsərrüfatı məhsulları və aqrar sahədə emal əməliyyatından keçmiş hər bir məhsul istehlakçının müəyyən bir tələbinin ödənməsinə səbəb olur. Buna görə də istehsal olunan hər bir məhsulun həcmini artırmaq üçün istehsal mühitinə uyğun gələn region və konkret istehsalçı müəyyən edilməlidir. Belə ki, fermerin qarşısına dənli bitkilərin həcmini artırmaq üçün tapşırıq qoyularsa o, məhsulun hansı növdən və keyfiyyətcə necə olması barədə toxumu seçməlidir. Nəticə etibarilə istehsal olunan məhsul kənd və şəhər əhalisinin tələbatının ödənilməsində, xarici ticarətə və digər istehsal sahələri üçün xammal olması barədə dəqiq aydın olur. Amma bilmək lazımdır ki, ekoloji təmiz və yüksək keyfiyyətli məhsul daha baha qiymətə satılır. İntensiv və ekstensiv istehsal üsulundan asılı olmayaraq hər bir kənd təsərrüfatı məhsulu konkret istehlakçının tələblərinə cavab verməlidir. Məhsulun neçəyə başa gəlməsində istehsalçı və istehlakçı bərabər səviyyədə həssasdırlar. Hazırkı innovasiya texnologiyalarının tətbiqi ərzaq məhsullarının keyfiyyəti və təbii xassələri ilə yanaşı onun qiymətinə də təsir göstərir. Praktika göstərir ki, hazır məhsulu bazar infrastrukturunda

satarkən real qiymət məsrəfdən asılı olmayaraq alğı-satqı münasibətlərinə əsasən həll olunur və razılaşdırılan bazar qiyməti real qiymətə yaxın olur. Bu qiymət faktiki məsrəfdən nə qədər uzaqlaşarsa istehsalın maddi marağı həmin qədər azala və ya arta bilər. Ərzaq təhlükəsizliyinin təmini 2 yolla ola bilər: 1) güclü inkişaf etmiş kənd təsərrüfatı emal sənayesi və kommersiya ticarət infrastrukturunun mövcud olması 2) xarici ölkələrlə aktiv ticarət əlaqələri. Müəyyən bir bölgənin ərzaq təhlükəsizliyi 3 formada baş verir: daimi, müvəqqəti, potensial. Daimi ərzaq təhlükəsizliyi kənd təsərrüfatının və emal sənayesinin zəif inkişafı, aqrar-sənaye biznesi üçün əlverişli şəraitin olmaması, xarici ticarət əlaqələri zamanı satmağa, habelə dəyişməyə məhsul olmadıqda baş verir. Müvəqqəti ərzaq təhlükəsizliyinin yaranma səbəbləri müxtəlif səbəblərə görə - ərzaq qıtlığı yaranan zaman, məhsuldarlıq aşağı düşdükdə, yanacaq enerji resurslarının qiymətinin qalxdıqda, əhalinin alıcılıq qabiliyyəti aşağı olduqda, kənd təsərrüfatının inkişafı üçün əlverişli olmayan hava şəraitinin yaranması zamanı, inflasiya baş verdikdə, işsizliklə əlaqəli əhalinin gəlirləri azaldıqda misal ola bilər. Potensial ərzaq qıtlığı isə ölkənin ərzaq təminatı xarici bazardan asılı olduqda, ticarət müharibəsi, sanksiyalar qoyulan zaman özünü göstərir. Potensial ərzaq qıtlığı uzunmüddətli davam etməsi onun sonralar daimi və ya müvəqqəti ərzaq qıtlığına keçməsinə səbəb olur ki, bu da ölkənin ciddi sosial-iqtisadi çətinliklərə düşməsinə səbəb olur. Kənd təsərrüfatında davamlı istehsal mühitinin olması müəyyən məhsulun əvvəlki illərə nisbətən artıb-azalması ilə müşahidə olunur və hər hansı məhsulun çatışmazlığı onun digər ölkədən alınması ilə nəticələnir. Amma yerli istehsal daha ucuz başa gəldikdə idxal yerli məhsul vasitəsilə əvəzlənir və bu əsasən güclü maddi-texniki bazaya məxsus kəndli və ailə təsərrüfatları tərəfindən yerinə yetirilir. Qeyd kimi demək olar ki, kənd təsərrüfatı kövrək sahədir və onun qarşısında qoyulan tapşırıq bəzi hallarda yerinə yetməyə də bilər. Bu əsasən ölkəyə xarici dövlətlərdən gətirilən məhsulun daha ucuz başa gəlməsi, fermerlərin maddi maraqlarının olmaması, bitkinin torpağın məhsuldarlığını aşağı salması zamanı baş verir. Xarici dövlətlərdən istənilən məhsulun ölkəyə ucuz daxil olması dövlətin

ərzaq təhlükəsizliyi siyasətinə misal ola bilər, amma burada həddi keçmək düzgün sayılmır. Elə etmək lazımdır ki, mövcud vəziyyətdə yerli istehsalçılar çatışmazlığı çevik doldura bilsin. Odur ki ərzaq təhlükəsizliyinin təmini zamanı qeyd edilən tədbirlərin görülməsi lazımdır:

- milli kənd təsərrüfatının inkişafını təmin etmək
- ərzaq təminatı və ehtiyyatına nail olmaq üçün hər bir bölgə üzrə özünə təminata önəm verilməsi
- hər bir region zəruri və strateji əhəmiyyətli məhsulların ehtiyyat fondunu yaratmalı
- ərzaq təminatından əhalinin bütünlükdə istifadə imkanlarının mövcudluğu

# II Fəsil AZƏRBAYCAN RESPUBLİKASINDA KƏND TƏSƏRRÜFATINDA MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

## 2.1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının səviyyə və dinamikasının təhlili

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının səviyyə və dinamikasının təhlilinə aydınlıq gətirmək üçün ilk növbədə "Kənd təsərrüfatında ümumi məhsul" anlayışına diqqət yetirmək lazımdır. Ümumi məhsuldarlıq müəyyən bir dövr üçün bütün sahələrdə istehsal edilmiş məhsulun miqdarıdır. Bu isə öz növbəsində bitkiçilikdə ümumi məhsuldarlıq və heyvandarlıqda ümumi məhsuldarlıq olmaqla 2 hissədən ibarətdir. Bitkiçilikdə ümumi məhsuldarlıq kənd təsərrüfatı bitkilərindən yığılan məhsul, çoxillik bitkilərin əkilməsini və başa çatmamış işlərə çəkilən xərcləri özündə əks etdirir. Heyvandarlıqda ümumi məhsuldarlığa isə hazır məhsul, heyvaların yetişdirilməsi və artırılması o cümlədən, çəkilən əlavə xərcləri aid etmək olar. Aqrar sferada ümumi məhsul natural və dəyərlə hesablanır. Natural hesablama ayrı-ayrı məhsul növləri ilə müəyyənləşdirildiyi halda, dəyərlə hesablama isə təqdim edilən və faktiki qiymətlər, həmçinin məhsulun maya dəyəri ilə hesablanır. Ümumi məhsul istehsalı həcmini dinamikada müəyyənləşdirmək, iqtisadi səmərəlilik, torpaq, əmək ehtiyyatlarının istifadəsini və s. hesablamaq üçün müqayisəli qiymətlərdən istifadə edilir. Ümumi məhsulun mövcud qiymətlər əsasında qiymətləndirilməsi üçün ümumi və təmiz gəlirdən istifadə edilir. Kənd təsərrüfatında ümumi məhsul dövriyyə metodu ilə müəyyən olunur. Ümumi dövriyyə müəssisənin bütün struktur bölmələri tərəfindən istehsal olunmuş məhsulun gələcəkdə daxili istifadə edilməsi və ya kənara çıxarılmasından asılı olmayaraq istehsal olunan bütün ümumi məhsulun dəyərini əks etdirir. Ümumi məhsul anlayışına yekun olaraq tərif versək deyə bilərik ki, o ictimai məhsul istehsalında sahə istehsalı strukturu və müxtəlif kateqoriyalı müəssisələrin məhsul istehsalındakı rolunu əks etdirən iqtisadi göstəricidir. Buna baxmayaraq bu göstəricinin bir sıra çatışmazlıqları olduğundan

müəssisənin təsərrüfat fəaliyyətinin nəticələrini dəqiq qiymətləndirməyə imkan vermir. Bunlara aşağıdakılar aiddir:

- Ümumi məhsul cari və keçmişdə istifadə olunan canlı əməyi əks etdirdiyi üçün onun hesablanmış göstəriciləri canlı əmək haqqında dəqiq məlumat əldə etməyə imkan vermir. Çünki onun həcmi maddi resurslardan asılıdır.
- Kənd təsərrüfatında bitkiçilik və heyvandarlıq sahələrində ümumi məhsul hesablanmasında təkrara yol verilməsi
- ümumi məhsulun göstəricilərinin müqayisəli qiymətlərlə hesablanması onun keyfiyyətini əks etdirməməsi.

Əmtəəlik məhsullar - bu termini ümumi məhsulların realizə olunması kimi də başa düşmək olar və ümumi məhsulun müəssisələrə paylanması və istehlakçı və satıcılar tərəfindən alınmasını əks etdirir. Məhsulun əmtəəlik səviyyəsi isə əmtəəlik məhsulların ümumi məhsullara nisbətinin 100-ə vurulması ilə hesablanır. Aqrar sahədə məhsulların əmtəəlik səviyyəsi təsərrüfat sahələri üzrə müxtəlifdir. Belə ki, kənd təssərrüfatı müəssisələri ailə təsərrüfatlarına nisbətən daha yüksək əmtəəlik səviyyəsinə malik olur. Çünki kənd təsərrüfatı müəssisələrinin məqsədi satış üçün məhsul istehsal etmək və insanlar üçün ərzağa olan tələbatın ödənilməsindən ibarətdir. Bazar iqtisadiyyatı şəraitində əmtəəlik məhsul səviyyəsinin yüksəldilməsinin əsas istiqamətlərinə aşağıdakıları misal göstərmək olar:

- ümumi məhsul istehsalında kənd təsərrüfatı bitkilərinin və heyvandarlığın yüksəldilməsi hesabına
- müəssisədaxili məhsul xərclərinin azaldılması
- məhsul keyfiyyətinin yaxşılaşdırılması və qənaətlə sərf olunması
- məhsul satışı üçün olan prosedurların (istehsal, saxlanma, daşınma) ehtiyyatla həyata keçirilməsi
- məhsul satışının təkmilləşdirilməsi.

Respublika ərazisində kənd təsərrüfatı məhsullarının səviyyə və dinamikasını nəzərdən keçirmək üçün məhsulların rəqabətqabiliyyətliliyi və keyfiyyəti anlayışına da nəzər yetirmək lazımdır. Rəqabət qabiliyyətli məhsullar bazarda daha

yüksək alıcılıq xüsusiyyəti olan və istehlakçılar tərəfindən yüksək tələbə malik olan məhsullardır. Amma bu anlayış nisbi anlayış kimi qəbul edilir, çünki məhsulun rəqabətqabiliyyətliliyi konkret bazar və satışla əlaqəlidir. Rəqabətqabiliyyəlilik 2 əsas göstərici ilə - məhsulun qiyməti və keyfiyyəti ilə müəyyən olunur. Burada keyfiyyət xüsusiyyəti daha əsas anlayış kimi qəbul olunur ki, məhsulun keyfiyyəti isə istehlak dəyəri ilə müyyən olunur. Hər bir alıcı üçün məhsulun əmtəəlik olması vacib göstəricidir və alış-satış əməliyyatı olduğu zaman çoxlu sayda alıcı əmtəəni bazar şəraitinə uyğuluğunu təsdiq etdiyi zaman məhsul da bir o qədər rəqabət qabiliyyətli hesab olunur. Rəqabətqabiliyyətlilik sistematik və arasıkəsilmədən öyrənilməlidir ki, onun nə zaman aşağı düşdüyü müəyyən edilsin və lazımi tədbirlər əvvəlcədən görülsün. Məhsulun keyfiyyəti  isə onun təyinat xüsusiyyətlərindən asılı olaraq  istehlakçı tələbatını ödəyən yararlılıq xassələrinin məcmusudur. Keyfiyyət istehlakçı tərəfindən bir məqsəd üçün istifadə edilərsə yüksək keyfiyyətli, bir neçə məqsəd üçün istifadə olunduqda isə aşağı keyfiyyətli hesab olunur. Bazar iqtisadiyyatı şəraitində məhsulun keyfiyyətinin yaxşılaşdırılması bilavasitə əmtəə istehsalçılarının üzərinə düşür. Bu problemlərin həlli üçün isə müəssisədə keyfiyyət standartları tətbiq olunmalıdır. Standartlaşdırma istehlakçı tərəfindən məhsulun alınması zamanı onun hüquqlarının müəyyən olunması və uyğun qiymətə alınmasını təmin edir, standart isə tərəflərlə razılaşdırılmış, aidiyyatı orqanlar tərəfindən təsdiq edilmiş sənəddir. Ümumilikdə kənd təsərrüfatı məhsullarının tələb və standartları elə müəyyən olunmalıdır ki, onlar keyfiyyət göstəricilərinin xüsusiyyətlərinə cavab verə bilsin. Standartlar isə mütləq və tövsiyyə hesab olunan hissələrdən ibarət olurlar ki, mütləq standartlar hər bir halda yerinə yetirilir. Tövsiyyə edilən və ya perspektivli standartlar isə təkcə istehsalda istifadə edilən tələb və keyfiyyət göstəriciləri ilə deyil, sonralar qəbul edilən standartların da əsasını qoyur. Standartlaşdırmanın növlərinə dövlət standartları, sahə standartları, müəssisə standartları, elmi –texniki standartlar və texniki şərtlər aiddir. Bundan əlavə istehsal resursları ilə kənd təsərrüfatı məhsulları arasında da sıx əlaqənin olduğunu qeyd edə bilərik. Misal

üçün torpaq məhsulun inkişafı və qidalanması üçün zəruri amil olmaqla yanaşı onun məhsuldar və keyfiyyətli olmasına da təsir göstərir. Dəqiq demək olar ki, yüksək keyfiyyətli məhsulun əldə edilməsi üçün əsas və dövriyyə vəsaitləri də nəzərə alınmalıdır, yəni yüksək texnika və məhsuldar torpaqlarda becərilən məhsullar keyfiyyət, istehsalın artırılması, heyvandarlıq məhsullarının keyfiyyətinin yaxşılaşdırılması ilə yanaşı optimal vaxt ərzində məhsul keyfiyyətinin yüksəldilməsinə də imkan verir. Bir digər amil kimi biz əmək ehtiyyatlarının tərkibcə yaxşılaşdırılmasını da qeyd edə bilərik. Əmək resurslarına əsas təsir kimi isə maddi həvəsləndirməni qeyd etmək lazımdır çünki, əmək haqqı ödəmələrinin səviyyəsi bilavasitə işin və istehsal olunan məhsulun keyfiyyəti ilə əlaqəlidir. Kənd təsərrüfatı məhsullarının məhsuldarlıq və keyfiyyət tənzimləməsinin əsas vasitəsi kimi suvarma sistemini qeyd edə bilərik. Amma həddən artıq suvarmaya diqqət etmək lazımdır, çünki bu prosesin artıq dərəcədə yerinə yetirilməsi  məhsulun keyfiyyətini aşağı salır. Heç təsadüfi deyil ki, hər bir kənd təsərrüfatı bitkiləri üçün müvafiq suvarma tətbiq olunur. Respublika ərazisində kənd təsərrüfatı məhsulları üzrə səviyyə və dinamikanı nəzərdən keçirərkən “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair” starteji yol xəritəsinə də nəzər yetirmək lazımdır. Qeyd olunan planlaşdırma müəyyən dövr ərzində bütünlükdə aqrar sahə üzrə görüləcək işləri əhatə edir və konkret inkişaf etdirlməli olan və problemli sahələrin həllinə yönələn məsələləri özündə daşıyır. Belə ki, bunlardan biri kənd təsərrüfatı məhsullarının istehsal potensialının dəyər zəncirinin artırılması nəzərdə tutulub. Buraya daxili və xarici bazarlarda kənd təsərrüfatı məhsulları üzrə istehsal potensialının artırılması, kənd təsərrüfatında fermer tərəfdaşlığının formalaşdırılması, kompleks layihələrin həyata keçirilməsi üçün dövlət və özəl müəssisələrin əməkdaşlığı, aqrobiznesin inkişafı üçün dəstək infrastrukturunun formalaşdırılması kimi məsələlər daxildir. Kənd təsərrüfatı məhsullarının bazarlara çıxışının asanlaşdırılması üzrə bazar infrastrukturunun inkişaf etdirilməsi, bazarların tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, kənd təsərrüfatı məhsulları üzrə ixracın təşviqi və

dəstəklənməsi məhsulların səviyyə və dinamikası baxımından əhəmiyyət kəsb edir. Qeyd etdiyimiz kimi kənd təsərrüfatı məhsullarının istehsalı və emalı onların səviyyə və dinamikası ilə əlaqəli olduğundan təhlil zamanı qarşımıza zəif və güclü tərəflər çıxa bilir. Bunlara ayrılıqda aşağıdakı kimi nəzərdən keçirmək mümkündür. Güclü tərəflər:

- Ölkə üzrə təbii resursların aqrar sahənin inişafı baxımından əlverişli olması
- kənd təsərrüfatı sahələrinin bazar iqtisadiyyatına uyğunlaşması
- müasir texnika və texnologiyaya əsaslanan emal sənayesi müəssisələrinin formalaşması
- ölkənin kənd təsərrrüfatı və ərzaq məhsulları ilə təminatının yaxşılaşması və müstəqillik əldə etdikdən sonra ərzaq məhsulları ilə ölkənin özünü təminetmə səviyyəsinin yüksəlməsi
- kənd təsərrüfatı məhsulları üzrə ixracın ümumi dinamikasında artımın müşahidə olunması
- kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən subsidiyaların və başqa güzəştlərin verilməsi,eyni zamanda istehsal vasitələrinin müasir dövrün tələbatına uyğun təşkil edilməsi
- bitkiçilik və heyvandarlıq sahələri üzrə intensiv təsərrüfatın inkişaf etməsi üçün dövlət yardımları mexanizmlərinin göstərilməsi
- konkret olaraq fəaliyyəti təsərrüfatçılıq sahələri üzərində qurulan aqrobiznes müəssisələrinin yaradılması
- Respublikamızın əlverişli coğrafi mövqeyinin olması ilə əlaqədar olaraq məhsulların beynəlxalq bazarlara çıxışının asanlaşdırılması
- yerinə yetirilən tədbirlərin nəticəsi kimi əvvəlki dövrlərlə müqayisədə inkişaf etməyə meylli olan kənd təsərrüfatı kompleksinin mövcudluğu.

Zəif tərəflərə isə aşağıdakılar aiddir:

- ölkə üzrə kənd təsərrüfatı məhsullarının istehsalında ekstensiv təsərrüfatın hökm sürməsinin nəticəsi kimi məhsuldarlığın aşağı göstəricisi
- suvarma sisteminin tətbiqində müəyyən problemlərin mövcudluğu

- hazırki bazar infrastrukturunun və satış mərkəzlərinin kifayət qədər inkişaf etməməsi
- məhsulların istehsal emal və ticarəti mərhələlərində əlavə dəyətin yüksəldilməsi imkanlarından yetərincə istifadə edilməməsi
- bazaryönümlülüyü aşağı səviyyədə olan ailə təsərrüfatlarının üstünlük təşkil etməsi
- Aqrar sahədə təklifyönümlü siyasətin tələbyönümlü siyasətdən üstünlük təşkil etməsi
- Aqrar və sənaye sahələri arasındakı tərəfdaşlıq münasibətlərinin aşağı səviyyədə olması
- kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində fermerlərin bilik və bacarıqlarının aşağı səviyyəli olması
- maliyyə bazarlarına çıxışimkanlarının məhdud olması
- emal sənayesi müəssisələrinin yerli xammal məhsulları hesabına təminatının aşağı olması .

Qeyd edilən strateji baxışı 3 dövrə ayırmaq mümkündür: 2020-ci ilə qədər dövrü əhatə edən, uzunmüddətli strateji baxış (2025ci-ilə qədər olan dövrü əhatə edir) və 2025-ci ildən sonrakı dövrü əhatə edən strateji baxış. 2020ci ilədək olan strateji dövrdə Azərbaycan respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair dayanıqlı iqtisadi inkişafı təmin edən, ərzaq təhlükəsziliyini möhkəmləndirən, iqtisadiyyatın şaxələndirilməsi və rayon və kəndlərdə sosial rifahın yüksəlməsinə yardımçı olan, rəqabətqabiliyyətli məhsulların istehsalı və emalını nəzərdə tutan dövr əhatə edir. Bununla da mövcud sahə üzrə tənzimləmə mexanizminin təkmilləşdirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması, qida təhlükəsizliyi sisteminin maksimuma çatdırılması, kənd təsərrüfatı məhsullarının istehsalı, satışı və istehsal vasitələri ilə əlaqəli rəqabət mühitinin təkmilləşdirilməsi, maliyyə bazarlarına çıxışın yaxşılaşdırılması, informasiya-məsləhət xidmətlərinin yaxşılaşdırılmasını və s. nəzərdə tutur. 2025ci ilədək olan uzunmüddətli dövr ənənəvi təsərrüfatçılıqdan müasir bazar

iqtisadiyyatı şəraitinə uyğun intensiv təsərrüfatın formalaşması hesabına yaranan rəqabətqabiliyyətli təsərrüfatı nəzərdə tutur. Bu dövrə qədər yerinə yetiriləcək işlərə baxsaq deyə bilərik ki,uzunmüddətli dövrdə kənd təsərrüfatı məhsullarının qeyri-neft sektorundakı istehsal həcmi və səmərəliliyinin artması, kənd təsərrüfatı sektorunun təkmilləşdirilməsi və rəqabətqabiliyyətliliyinin artırılması, 2016-2020-ci illəri əhatə edən dövrdə görüləcək işlərin 2025-ci ilədək kənd təsərrüfatı sektorunda əsaslı dəyişikliklərə səbəb olması, eləcə də respublika üçün nəzərdə tutulan elektron kənd təsərrüfatı sisteminin fəaliyyət göstərməsi SYX-nin prioritet istiqamətlərindəndir. Sonuncu dövrü əhatə edən 2025-ci ildən sonrakı müdddət ərzində qarşıya qoyulan əsas məsələ yüksək texnoloji inkişafın olduğu, sənayeyönümlü, ətraf-mühitin tələblərini nəzərə alan eyni zamanda dəyər zənciri sistemınə inteqrasiya edən kənd təsərrüfatı formasını nəzərdə tutur. Qeyd edilən dövrün şərhinə uyğun olaraq deyə bilərik ki, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə artımın müşahidə olunması, emal müəssisələrinin kənd təsərrüfatı məhsullarını emal edərək daha yüksək dəyərli məhsul əldə edilməsi, ərzağa olan tələbatın yerli istehsal hesabına ödənilməsi ilə yanaşı ixrac potensialının da artırılması, dövlət tərəfindən müdaxilələrin minimuma endirilməsi və əvəzində dəstək təminatının gücləndirilməsi, ekoloji dayanıqlılığın yaradılması və tədbirlər üzrə kənd təsərrüfatını inkişaf etdirən konkret digər tədbirlərin görülməsini nəzərdə tutur.

Respublika ərazisində kənd təsərrüfatı məhsullarının istehsal potensialının artırılması istiqamətində müəyyən tədbirlər görülür. Ümumi olaraq qeyd edə bilərik ki, Azərbaycanın kənd təsərrüfatı və ərzaq məhsullarının müqayisəli üstünlükləri yüksəkdir ki, bu da istehsal potensialının artırılması hesabına idxalın əvəzlənməsi və bazar iqtisadiyyatı şəraitində rəqabətqabiliyyətli məhsulların ixracının genişləndirilməsinə təkan verir. Amma onu qeyd etməliyəm ki, istehsalın artırılması üzrə görülən tədbirlər, həmçinin dövlət tədbirləri dəyər zəncirinin ilkin mərhələsi üzərində qurulmuşdur. Həmçinin qeyd etmək lazımdır ki, bazar infrasturkturunun inkişafı və genişləndirilməsi məsələsi də əhəmiyyət kəsb

etdiyindən bu istiqamətdə də tədbirlərin görülməsinə ehtiyac duyulur. Eni zamanda istehsalçı və emalçı qrupları arasında mövcud əlaqələrin zəif olması aqrobiznesin dəyər zəncirləri arasında həlqəvari inkişafın məhdud olması ilə nəticələnir.

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının səviyyə və dinamikasının təhlilini apararkən icmal ərzaq balanslarına, sənaye emalından keçmiş əsas növ ərzaq məhsullarının balanslarına, özünü təmin etmə səviyyəsi və idxaldan asılılıq göstəricilərinə, ərzaq məhsullarının adambaşına istehlakı göstəricilərinə, eyni zamanda bu sahədə fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri və fərdi sahibkar təsərrüfatlarının əsas iqtisadi göstəriciləri və Azərbaycanla MDB dövlətləri arasında müqayisə əsasında verilmiş göstəricilərə nəzər yetirəcəyik.

- İcmal ərzaq balansı üzrə təhlil bitkiçilik, heyvandarlıq və sənaye emalından keçmiş əsas növ ərzaq məhsulları üzrə baxılacaq. Bitkiçilik məhsulları üzrə məlumatlara əsasən deyə bilərik ki, dənli bitkilər üzrə idxal 1,427,086 ton, ixrac 1 ton, istehsal 2,808,612 ton, itkilər 274,142 ton olmuş, sənaye ehtiyaclarının ödənilməsində isə 2,432,382 ton məhsul istifadə edilmişdir (Azərbaycanın ərzaq balansları) (Əlavə 1, Cədvəl 2, səh. 69 ).

- Heyvandarlıq məhsulları üzrə icmal ərzaq balansları nəzərdən keçirilərkən ehtiyyatlar və istifadələr üzrə tərtib edilmiş statistik məlumatlara əsasən istehsalın 316,827 ton, idxalın 57,991 ton, ixracın 665 ton, ərzaq məhsulu kimi ilkin istifadənin 364,291 ton , sənayedə istifadəsi isə 16,992 ton təşkil etmişdir (Azərbaycanın ərzaq balansları) (Əlavə 2, Cədvəl 3, səh. 70 ).

- Sənaye emalından keçmiş əsas növ ərzaq məhsullarının statistik məlumatlarında əsas diqqət çəkən məsələ idxal olunan məhsul həcminin ixracdan daha çox olmasıdır. Bunun əsas səbəbi kimi ölkə üzrə kənd təsərrüfatı məhsul istehsalının aşağı səviyyəli olması kimi əlaqələndirmək olar (Azərbaycanın ərzaq balansları) (Əlavə 3, Cədvəl 4, səh. 71).

Kənd təsərrüfatı məhsullarının səviyyə və dinamikasında bir digər göstərici kimi özünü təminetmə və idxaldan asılılıq rəsmi statistik göstəricilərinə nəzər

yetirək. Burada bitkiçilik, heyvandarlıq və sənaye emalından keçmiş əsas növ ərzaq məhsulları verilmişdir.

**Cədvəl 5. Bitkiçilik məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| Dənlilərin cəmi (çəltik daxil edilmir) | 64,3 | 63,9 | 60,6 | 64,5 | 63,8 | 66,3 |
| buğda | 56,8 | 55,9 | 54,1 | 54,8 | 52,9 | 58,1 |
| arpa | 95,1 | 97,8 | 84,6 | 95,1 | 101,7 | 94,4 |
| qarğıdalı | 67,3 | 60,0 | 56,7 | 54,1 | 71,1 | 70,7 |
| vələmir | 84,4 | 89,3 | 62,2 | 93,1 | 85,7 | 90,1 |
| sair növ dənlilər | 8,7 | 2,3 | 1,1 | 6,3 | 32,0 | 20,4 |
| kartof | 98,2 | 97,6 | 89,7 | 89,1 | 85,5 | 89,2 |
| bostan məhsulları | 100,1 | 100,0 | 100,4 | 100 | 100,2 | 100,2 |
| Meyvə, giləmeyvə | 125,7 | 121,8 | 120,1 | 113,7 | 116,4 | 122,4 |
| üzüm | 94,3 | 94,8 | 97,9 | 93,1 | 89,2 | 93,4 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

**Cədvəl 6. Bitkiçilik məhsulları ilə təminatda idxaldan asılılıq səviyyəsi, faiz**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| Dənlilərin cəmi (çəltik daxil edilmir) | 35,7 | 36,1 | 39,4 | 35,5 | 36,5 | 33,7 |
| buğda | 43,2 | 44,1 | 45,9 | 45,2 | 47,1 | 41,9 |
| arpa | 4,9 | 2,2 | 15,4 | 4,9 | 0,1 | 5,6 |
| qarğıdalı | 32,7 | 40,0 | 43,3 | 45,9 | 28,9 | 29,3 |
| vələmir | 15,6 | 10,7 | 37,8 | 6,9 | 14,3 | 9,9 |
| sair növ dənlilər | 91,3 | 97,7 | 98,9 | 93,7 | 71,8 | 79,6 |
| kartof | 7,8 | 7,7 | 15,7 | 14,8 | 18,1 | 16,5 |
| Bütün növ tərəvəz | 5,7 | 3,1 | 3,4 | 3,4 | 5,1 | 3,8 |
| Meyvə, giləmeyvə | 10,1 | 4,9 | 3,6 | 9,6 | 12,6 | 12,7 |
| üzüm | 5,9 | 6,0 | 2,4 | 8,1 | 13,5 | 8,1 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

Rəqəmlər əsasında qeyd etmək olar ki, sair növ dənlilər istisna olmaqla digər bitkiçilik məhsulları üzrə ölkənin özünü təminetmə və idxaldan asılılıq göstəricilərində stabil meyil mövcuddur. Sair növ dənlilərdə isə 12,3% artım müşahidə edilsə də, idxaldan asılılıq səviyyəsində 11,7% azalma olmuşdur. Bitkiçilik məhsulları ilə təminatda idxaldan asılılıq göstəricilərində ən yüksək mənfi göstərici kartof bitkisində müşahidə ediliri. Belə ki, 2012-2017-ci illər ərzində kartofun idxal faizi 7,8%-dən 16,5%-ə yüksəlmişdir. Bunun əsas səbəbinin idxal məhsulunun daha ucuz başa gəlməsi ilə əlaqələndirmək olar.

**Cədvəl 7. Heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| Bütün növ ət və ət məhsulları | 91,8 | 92,4 | 92,4 | 94,7 | 87,9 | 84,7 |
| Mal əti və ət məhsulları | 92,6 | 86,3 | 87,7 | 91,8 | 93,5 | 86,3 |
| Qoyun(keçi) əti və ət məhsulları | 98,5 | 97,7 | 97,9 | 99,3 | 98,7 | 98,0 |
| Donuz əti və ət məhsulları | 25,7 | 36,0 | 16,6 | 17,8 | 7,0 | 5,6 |
| Quş əti və ət məhsulları | 87,8 | 98,5 | 98,0 | 98,6 | 79,1 | 79,7 |
| Süd və süd məhsulları | 72,5 | 76,0 | 76,3 | 84,3 | 87,7 | 86,1 |
| Yumurta | 96,2 | 100,0 | 99,7 | 99,7 | 98,8 | 100,5 |
| Balıq və balıq məhsulları | 74,7 | 71,7 | 72,8 | 77,6 | 82,3 | 81,2 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

**Cədvəl 8. Heyvandarlıq məhsulları ilə təminatda idxaldan asılılıq səviyyəsi, faiz**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| Bütün növ ət və ət məhsulları | 8,8 | 8,1 | 8,1 | 5,6 | 12,1 | 15,5 |
| Mal əti və ət məhsulları | 8,9 | 14,8 | 13,2 | 8,8 | 6,6 | 13,8 |
| Qoyun(keçi) əti və ət məhsulları | 1,5 | 2,3 | 2,1 | 0,7 | 1,3 | 2,4 |
| Donuz əti və ət məhsulları | 74,3 | 64,2 | 83,4 | 82,2 | 93,0 | 94,4 |
| Quş əti və ət məhsulları | 12,2 | 1,5 | 2,1 | 1,4 | 20,9 | 20,5 |
| Süd və süd məhsulları | 27,5 | 24,3 | 23,9 | 16,0 | 12,6 | 14,6 |
| Yumurta | 4,2 | 0,1 | 0,3 | 0,3 | 1,2 | 0,0 |
| Balıq və balıq məhsulları | 25,3 | 28,4 | 27,2 | 22,4 | 18,0 | 19,4 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

- Heyvandarlıq məhsulları ilə özünü təminetmə səviyyəsini nəzərdən keçirdikdə bütün növ ət və ət məhsullarında 7,1% azalma müşahidə olunur. Ümumilikdə bu azalma süd, yumurta və balıq məhsulları xaricində digər məhsullarda da müəyyən faiz nisbətində özünü göstərmişdir.

- İdxaldan asılılıq göstəricisində isə əksinə olaraq artım olmuş, bu göstərici yenə də öz müsbət təsirini balıq, yumurta və süd məhsulları üzərində əks etdirmişdir.

**Cədvəl 9.Sənaye emalından keçmiş əsas növ ərzaq məhsulları özünü təminetmə səviyyəsi, faiz**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| Un(bütün növləri) | 94,1 | 93,8 | 94,8 | 95,1 | 96,1 | 96,0 |
| Makaron məmulatları | 70,2 | 52,6 | 58,0 | 53,2 | 51,1 | 48,0 |
| Bitki yağları | 64,8 | 74,9 | 67,0 | 60,5 | 36,9 | 37,1 |
| Marqarin | 98,9 | 99,5 | 99,3 | 292,2 | 105,7 | 101,5 |
| Şirinləşdirilmiş mineral və qazlı sular | 92,4 | 92,1 | 90,0 | 86,1 | 81,5 | 77,2 |
| Şəkər | 176,0 | 177,7 | 170,6 | 192,9 | 114,4 | 60,6 |
| Çay | 65,6 | 54,7 | 50,7 | 40,2 | 44,9 | 47,7 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

**Cədvəl 10. Sənaye emalından keçmiş əsas növ ərzaq məhsulları ilə təminatda idxaldan asılılıq səviyyəsi, faiz**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| Makaron məmulatları | 50,2 | 65,0 | 53,4 | 52,1 | 52,8 | 55,6 |
| Bitki yağları | 87,3 | 86,1 | 81,2 | 73,3 | 68,9 | 69,0 |
| Marqarin | 1,1 | 0,5 | 0,7 | 2,4 | 0,9 | 3,7 |
| Şirinləşdirilmiş mineral və qazlı sular | 8,3 | 9,2 | 11,4 | 14,6 | 18,6 | 23,0 |
| Şəkər | 34,8 | 29,9 | 27,2 | 37,2 | 15,3 | 56,3 |
| Çay | 77,6 | 100,7 | 83,6 | 87,6 | 60,6 | 60,0 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

- Sənaye emalından keçmiş əsas növ ərzaq məhsullarının statistik göstəricilərinə nəzər yetirdikdə 2012-2017-ci illər üzrə bitki yağları, makaron məmulatları, çay, şəkər, şirinləşdirilmiş mineral və qazlı sular istisna olmaqla digər məhsullar üzrə özünü təminetmə üzrə artım, idxaldan asılılıq üzrə isə azalma müşahidə edilmişdir. Marqarin üzrə aparılan müşahidə də isə həm özünü təminetmə, həm də idxal üzrə artım olmuşdur və düşünürəm ki, buradakı artımın səbəbi marqarinin ölkə əhalisi üzrə istehlak çəkisinin artması ilə əlaqəlidir (https://https://www.stat.gov.az, 2017).

**Cədvəl 11. Minimum istehlak səbəti üzrə əsas növ ərzaq məhsullarının illik istehlak normaları, (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014 – cü il 06 iyun tarixli 182 nömrəli qərarı ilə təsdiq edilmişdir)**

| | əmək qabiliyyətli yaşadək əhali | əmək qabiliyyətli yaşda əhali | əmək qabiliyyətli yaşdan yuxarı əhali | Orta hesabla bütün əhalinin hər nəfəri üçün |
|---|---|---|---|---|
| Əhalinin xüsusi çəkisi, faiz | 22,6 | 68,4 | 9,0 | 100,0 |
| Çörək və çörək məhsulları(una çevirməklə) | 100,5 | 136,8 | 107,9 | 126,2 |
| Kartof | 42,0 | 54,8 | 40,2 | 50,7 |
| Tərəvəz və bostan məhsulları | 100,7 | 97,2 | 85,2 | 97,0 |
| Meyvə, giləmeyvə | 76,0 | 38,0 | 32,0 | 46,0 |
| Ət və ət məhsulları | 29,6 | 32,9 | 25,6 | 31,5 |
| Süd və süd məhsulları (südə çevirməklə) | 258,6 | 223,6 | 233,8 | 232,3 |
| Balıq və balıq məhsulları | 8,0 | 7,7 | 6,8 | 7,7 |
| Yumurta, ədəd | 183,0 | 150,0 | 100,0 | 153 |
| Şəkər və qənnadı məmulatları | 19,7 | 16,9 | 15,8 | 17,4 |
| Bitki yağı, marqarin və digər piylər | 7,0 | 10,9 | 8,4 | 9,8 |
| Kərə yağı | 6,0 | 7,0 | 5,8 | 6,7 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

- Minimum istehlak səbəti üzrə əsas növ ərzaq məhsullarının istehlakı göstəricilərinə nəzər yetirdikdə çörək və çörək məhsulları, kartof , bitki və kərə yağı, eyni zamanda ət və ət məhsulları istehlakında artım görülmüşdür (Azərbaycanın ərzaq balansları)

**Cədvəl 12. Adambaşına əsas növ bitkiçilik məhsullarının istehlakı, illik kiloqramla**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| Dənlilərin cəmi (çəltik daxil edilmir) | 10,8 | 10,4 | 10,2 | 9,8 | 9,9 | 10,0 |
| buğda | 9,6 | 9,1 | 8,2 | 7,9 | 8,4 | 8,4 |
| qarğıdalı | 1,2 | 1,2 | 1,6 | 1,8 | 1,5 | 1,3 |
| sair növ dənlilər | 0,06 | 0,04 | 0,41 | 0,12 | 0,03 | 0,23 |
| paxlalılar | 3,4 | 3,2 | 3,1 | 3,3 | 3,0 | 3,7 |
| kartof | 72,8 | 74,5 | 72,5 | 71,6 | 74,9 | 75,2 |
| bütün növ tərəvəz | 116,6 | 112,1 | 108,0 | 110,4 | 105,1 | 104,1 |
| pomidor | 44,1 | 44,8 | 41,3 | 41,8 | 38,4 | 41,7 |
| bostan məhsulları | 40,0 | 39,7 | 40,0 | 43,6 | 41,3 | 39,1 |
| Meyvə, giləmeyvə | 62,3 | 67,0 | 66,9 | 72,7 | 70,4 | 71,2 |
| Qoz və fındıq | 3,0 | 3,0 | 2,5 | 3,1 | 2,7 | 2,8 |
| Nar | 13 | 13,6 | 14,3 | 15,0 | 13,3 | 13,9 |
| üzüm | 10,0 | 9,6 | 9,0 | 9,9 | 8,8 | 9,4 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

- Bitkiçilik məhsullarının adambaşına illik istehlakında bütün növ tərəvəz məhsulları istisna olmaqla digər məhsullar üzrə sabit və artan statistik rəqəmlər nəzərə çarpır. Burada ən yüksək göstərici kimi isə kartofun 2,4 kq və meyvə və giləmeyvə istehlakının isə 8,4 kq artmasını demək olar.

**Cədvəl 13. Adambaşına əsas növ heyvandarlıq məhsullarının istehlakı, illik kiloqramla**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| Bütün növ ət və ət məhsulları | 32,4 | 33,2 | 33,4 | 33,5 | 35,5 | 37,4 |
| Mal əti və ət məhsulları | 13,8 | 15,0 | 14,8 | 15,0 | 14,5 | 15,4 |
| Qoyun və keçi əti və ət məhsulları | 7,7 | 7,8 | 7,5 | 7,5 | 7,9 | 8,1 |
| Quş əti və ət məhsulları | 10,6 | 10,3 | 10,7 | 10,5 | 12,4 | 13,0 |
| Süd və süd məhsulları | 240,5 | 242,8 | 246,5 | 246,2 | 236,2 | 238,1 |
| Yumurta, ədəd | 127 | 138 | 152 | 154 | 156 | 158 |
| Balıq və balıq məhsulları | 8,2 | 7,5 | 7,2 | 7,0 | 7,6 | 7,9 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

- Heyvandarlıq məhsullarının istehlakında isə süd və süd məhsulları üzrə 2,4 kq və balıq məhsullarında 0,3 kq azalma olmuşdur. Əsas artım isə yumurta istehlakında 31 kq olmaqla qeydə alınmışdır.

**Cədvəl 14. Sənaye emalından keçmiş əsas növ məhsulların adambaşına istehlakı, illik kiloqramla**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| Un (bütün növləri) | 52,0 | 54,0 | 57,6 | 58,2 | 72,7 | 73,2 |
| Makaron məmulatları | 1,6 | 1,5 | 1,6 | 2,8 | 1,6 | 1,6 |
| Bitki yağları | 8,6 | 8,8 | 10,8 | 12,6 | 15,9 | 16,0 |
| Marqarin | 2,5 | 2,6 | 3,0 | 1,4 | 2,9 | 3,1 |
| Yağlılığı 1-6% olan süd və qaymaq | 89,6 | 89,6 | 89,4 | 89,9 | 90,9 | 94,8 |
| Yağlılığı 6%-dən çox olan süd və qaymaq | 0,5 | 0,5 | 0,5 | 0,5 | 0,6 | 0,6 |
| Şəkər | 21,2 | 24,5 | 25,6 | 21,7 | 24,4 | 26,3 |
| Çay | 1,7 | 1,5 | 1,7 | 1,7 | 2,0 | 2,3 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

- Emala məruz qalan kənd təsərrüfatı məhsullarının adambaşına istehlakında isə ən çox artım göstərən istehlak malları unun bütün növləri və yağlılığı 1-6 % olan süd və qaymaq məhsulları üzrə müşahidə edilib. Digər sənaye məhsulları üzrə isə demək olar ki, stabil artımla istehlakın olması nəzərə çarpır.

Səviyyə və dinamikanın təhlilini apararkən kənd təsərrüfatı müəssisələrinin və fərdi sahibkar təsərrüfatlarının məhsul satışının rentabelliyinə baxmaqla aqrar sektorun məhsul baxımından mənfəətliliyini də müəyyən edə bilərik.

**Cədvəl 15. Kənd təsərrüfatı müəssisələrinin məhsul satışının rentabelliyi, faiz**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|
| Dənlilər və dənli paxlalılar | 42,9 | 47,6 | 50,2 | 41,0 | 47.3 | 45,8 | 53,6 |
| Tütün | 41,6 | 22,8 | 68,3 | 180,2 | 83.0 | - | 179,0 |
| Tərəvəz(açıq torpaqda) | 6.8 | 41.3 | 84.8 | 94.3 | 71.4 | 17,8 | 40,3 |
| Bitkiçilik məhsulları üzrə | 24,1 | 35,5 | 35,1 | 29,3 | 36,0 | 43,5 | 25,5 |
| Mal-qara və quş əti, o cümlədən: | 25,7 | 20,9 | 12,3 | 10,8 | 3,4 | 13,9 | 7,8 |
| Iri buynuzlu mal-qara | 10,0 | 46,1 | 29,0 | 15,4 | 2,4 | 3,3 | 39,5 |
| Qoyun və keçi | 37,4 | 43,9 | 44,8 | 35,0 | 37.9 | 27,8 | 58,9 |
| Quş | 26,9 | 19,4 | 11,1 | 10,3 | 3,0 | 14,4 | 5,0 |
| Heyvandarlıq məhsulları üzrə | 20,5 | 15,1 | 16,5 | 9,4 | 7.1 | 11,8 | 8,0 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

- Kənd təsərrüfatı müəssisələrində məhsul satışının rentabelliyi 2012-2017-ci illər ərzində bitkiçilik məhsulları üzrə ən çox tütün 128,4 %, tərəvəz 33,5 %, heyvandarlıq məhsulları üzrə isə iri buynuzlu mal-qara 29,5 %, qoyun və keçi satışı üzrə isə 21,5 % olmuşdur. Hər 2 sahə üzrə 5 il ərzində orta göstərici 1,4 % və -12,5% olmuşdur. Heyvandarlıq məhsulları üzrə rentabelliyin azalmasının əsas

səbəbi kimi mal-qara və quş əti satışında müşahidə edilən 17,7% azalmanı demək olar.

**Cədvəl 16. Fərdi sahibkar təsərrüfatlarının məhsul satış rentabelliyi, faiz**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|
| Dənli bitkilər | 25,9 | 36,1 | 24,7 | 28,7 | 46,6 | 55,6 | 83,4 |
| Tütün | 48,4 | 28,2 | 19,1 | - | 6,1 | 34,6 | 150,0 |
| Tərəvəz(açıq torpaqda) | 84,0 | 53,1 | 73,9 | 85,7 | 109,1 | 94,7 | 116,2 |
| Meyvə, giləmeyvə | 107,9 | 75,7 | 94,9 | 91,2 | 108,5 | 237,6 | 185,8 |
| Bitkiçilik məhsulları üzrə | 38,7 | 42,8 | 34,7 | 38,8 | 39,3 | 61,8 | 49,9 |
| Mal-qara və quş əti, o cümlədən: | 39,5 | 38,1 | 41,8 | 41,2 | 39,1 | 44,5 | 51,5 |
| Iri buynuzlu mal-qara | 37,5 | 34,3 | 37,5 | 35,2 | 33,9 | 37,8 | 54,5 |
| Qoyun və keçi | 41,2 | 42,8 | 45,9 | 47,2 | 44,0 | 50,9 | 48,6 |
| Quş | 52,7 | 34,9 | 45,7 | 39,7 | 42,6 | 46,0 | 47,0 |
| Heyvandarlıq məhsulları üzrə | 45,4 | 41,6 | 45,3 | 43,7 | 42,4 | 46,5 | 51,9 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

- Fərdi sahibkar təsərrüfatlarının satış rentabelliyində dənli bitkilər 57,5%, tütün 101,6%, tərəvəz 32,2%, meyvə və giləmeyvə 77,9%, olmaqla artım göstərmişdir. Ümumilikdə isə bitkiçilik məhsulları üzrə artım 11,2 %, heyvandarlıq məhsulları üzrə isə 6,5% olmuşdur. (Kənd təsərrüfatı müəssisələrinin və fərdi sahibkar təsərrüfatlarının əsas iqtisadi göstəriciləri, (https://www.stat.gov.az, 2017)

Kənd təsərrüfatı məhsullarının səviyyə və dinamikasının yekun təhlilinin aparılması üçün təkcə ölkə daxili deyil, eyni zamanda qonşu və digər dövlətlərlə aparılması da məqsədə uyğundur. Çünki ölkədə məhsulların səviyyə və dinamikasının xarici dövlətlərlə müqayisəsinin aparılması beynəlxalq bazarlarda mövcud vəziyyətdən də xəbər verir. Eyni zamanda ixracda hansı məhsullara üstünlük verilməsi ilə bağlı müəyyən məlumatların əldə edilməsində də əhəmiyyətli rol oynayır. Bunun üçün müvafiq kənd təsərrüfatı məhsullarının xüsusilə əsas istehlak qabiliyyəti olan taxıl, ət və süd məhsullarının statistik göstəricilərinə baxaq. Qeyd edilən məhsulların təhlil üçün götürülməsi həmin məhsulların istehsal faizinin və istehlak xüsusiyyətlərinin yüksək olması ilə əlaqəlidir. Nəzərə almaq lazımdır ki, istehsalın artırılması ölkədaxili təsərrüfatın təşkili baxımından əhəmiyyətli olduğu qədər, həmçinin daxili tələbatın ödənilməsi üçün də mühüm əhəmiyyət kəsb edir. İndi isə təhlillərə cədvəllər əsasında nəzər yetirək:

**Cədvəl 17. Taxıl istehsalı, təmizlənmədən sonrakı çəkidə, bütün təsərrüfat kateqoriyaları üzrə**

| | 2003 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| Azərbaycan | 2 011 | 2 881 | 2 322 | 2 923 | 2 987 | 2 855 |
| Ermənistan | 310 | 549 | 591 | 602 | 604 | 303 |
| Belarus | 5 449 | 7 600 | 9 564 | 8 657 | 7 461 | 7 990 |
| Qazaxıstan | 14 777 | 18 231 | 17 162 | 18 673 | 20 634 | 20 585 |
| Qırğızıstan | 1 671 | 1 813 | 1 446 | 1 850 | 1 861 | 1 823 |
| Moldova | 1 613 | 2 681 | 2 922 | 2 206 | 2 993 | 3 342 |
| Rusiya | 66 962 | 92 385 | 105 315 | 104 786 | 120 672 | 134 130 |
| Tacıkistan | 868 | 1 364 | 1 307 | 1 365 | 1 413 | 1 425 |
| Özbəkistan | - | 7 767 | 7 907 | 8 177 | 8 261 | 8 117 |
| Ukrayna | 20 234 | 63 051 | 63 859 | 60 126 | 66 088 | 61 283 |

**Adambaşına, kq**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Azərbaycan | 246 | 310 | 247 | 307 | 310 | 293 |
| Ermənistan | 97 | 182 | 196 | 200 | 202 | 102 |
| Belarus | 552 | 803 | 1 009 | 912 | 785 | 841 |
| Qazaxıstan | 991 | 1 070 | 993 | 1 064 | 1 160 | 1 141 |
| Qırğızıstan | 332 | 332 | 254 | 319 | 325 | - |
| Moldova | 446 | 753 | 822 | 621 | 843 | 942 |
| Rusiya | 465 | 644 | 721 | 716 | 823 | 913 |
| Tacıkistan | 133 | 169 | 158 | 162 | 163 | 161 |
| Özbəkistan | - | 257 | 257 | 261 | 259 | 251 |
| Ukrayna | 423 | 1 386 | 1 485 | 1 403 | 1 549 | 1 442 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

- taxıl istehsalına baxsaq görərik ki, ölkəmizdə 15 illik dövr ərzində taxıl istehsalı 844 ton artım göstərmişdir. Belə ki, bu göstərici Belarus, Qazaxıstan, Moldova, Rusiya və Ukraynadan geri qalır ki, əhalinin sayı, ölkənin ixtisaslaşma səviyyəsi və münbit torpaq sahələrinin daha çox olması ilə əlaqələndirmək olar. Adambaşına istehsal isə ölkədə 47 ton artmışdır (Azərbaycanın kənd təsərrüfatı, 2018)

**Cədvəl 18. Ət istehsalı, kəsilmiş çəkidə, bütün təsərrüfat kateqoriyalarında**

| | 2003 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| Azərbaycan | 186 | 287 | 291 | 299 | 302 | 317 |
| Ermənistan | 53 | 83 | 93 | 100 | 106 | 193 |
| Belarus | 605 | 1 172 | 1 073 | 1 149 | 1 172 | 1 677 |
| Qazaxıstan | 693 | 871 | 900 | 931 | 961 | 1 018 |
| Qırğızıstan | 194 | 193 | 203 | 208 | 212 | 395 |
| Moldova | 84 | 115 | 122 | 131 | 138 | 180 |
| Rusiya | 4 993 | 8 544 | 9 070 | 9 565 | 9 899 | 10 391 |
| Tacıkistan | 45 | 87 | 99 | 109 | 117 | 124 |
| Özbəkistan | - | 1 004 | 1 070 | 1 141 | 1 178 | 2 281 |
| Ukrayna | 1 725 | 2 389 | 2 360 | 2 323 | 2 324 | 3 259 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

- Ət istehsalında isə Azərbaycan öz istehsal gücünü 2003-2017-ci illər ərzində 131 ton artırmışdır. Bu göstərici də ölkəmiz yalnız Ermənistan, Moldova və Tacikistanı qabaqlaya bilmişdir. Buna səbəb kimi isə ölkə üzrə heyvandarlıq sahəsində ixtisaslaşmanın yetərincə olmamasını deyə bilərik.

**Cədvəl 19. Süd istehsalı, bütün təsərrüfat kateqoriyalarında**

| | 2003 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| Azərbaycan | 1 168 | 1 797 | 1 856 | 1 925 | 2 024 | 2 024 |
| Ermənistan | 514 | 657 | 700 | 729 | 754 | 758 |
| Belarus | 4 683 | 6 633 | 6 703 | 7 047 | 7 141 | 7 321 |
| Qazaxıstan | 4 317 | 4 930 | 5 068 | 5 182 | 5 459 | 5 459 |
| Qırğızıstan | 1 192 | 1 408 | 1 446 | 1 481 | 1 525 | 1 556 |
| Moldova | 593 | 527 | 525 | 520 | 504 | 485 |
| Rusiya | 33 316 | 30 529 | 30 791 | 30 797 | 30 759 | 31 120 |
| Tacıkistan | 459 | 828 | 855 | 889 | 918 | 950 |
| Özbəkistan | - | 7 885 | 8432 | 9 028 | 9 703 | 10 083 |
| Ukrayna | 13 661 | 11 488 | 11 133 | 10 615 | 10 382 | 10 329 |
| **Adambaşına, kq** | | | | | | |
| Azərbaycan | 143 | 193 | 197 | 202 | 209 | 208 |
| Ermənistan | 160 | 217 | 232 | 242 | 252 | 254 |
| Belarus | 474 | 701 | 707 | 743 | 752 | 771 |
| Qazaxıstan | 290 | 289 | 293 | 295 | 300 | 303 |
| Qırğızıstan | 237 | 258 | 262 | 260 | 262 | - |
| Moldova | 164 | 148 | 148 | 146 | 142 | 137 |
| Rusiya | 231 | 213 | 211 | 210 | 210 | 212 |
| Tacıkistan | 70 | 103 | 104 | 105 | 106 | 108 |
| Özbəkistan | - | 261 | 274 | 288 | 305 | 311 |
| Ukrayna | 286 | 253 | 259 | 248 | 243 | 243 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

- Azərbaycanda süd istehsalı 856 ton artmışdır. Adambaşına istehsal isə 65 ton təşkil etmişdir, bu göstərici Qazaxıstanda 23 ton, Moldovada -27 ton, Rusiyada -19 ton, Ukraynada isə -43 ton olmuşdur. Ölkəmizdə süd məhsullarının ümumi və xüsusi çəkisində artım olsa da dünyanın qabaqcıl ölkələrindən və eyni zamanda cədvəl üzrə bir sıra MDB dövlətlərindən geri qaldığını qeyd etmək olar (Azərbaycanın kənd təsərrüfatı, 2018).

Təhlillərin nəticələri göstərir ki, Azərbaycanda ümumi kənd təsərrüfatı sahələri arasında artım müşahidə edilsə də, ümumilikdə ixtisaslaşma səviyyəsinin lazımi səviyyədə olmaması istehsal miqdarına və digər sahələrə də təsir göstərir.

## 2.2. Kənd təsərrüfatına cəlb edilən investisiyaların müasir vəziyyətinin təhlili

Aqrar sferanın səmərəli və dayanıqlı inkişafının təmin edilməsi üçün onu kifayət qədər investisiyalaşdırmaq lazımdır. Əvvəlcə investisiya haqqında qısa məlumat verək və daha sonra onun aqrar bölmədəki rolu haqqında ədəbiyyatlardan əldə etdiyimiz məlumatlara nəzər yetirək. İnvestisiya - sahibkarlıq və digər obyektlərə gəlir əldə etmək məqsədilə uzunmüddətli qoyulan pul vəsaitləridir. İnvestisiya anlayışı özündə yaratmaq, genişləndirmək, yenidən təşkil etmək və əsas vəsaitlərlə texniki cəhətdən yenidən silahlandırmaq, eləcə də bunlarla əlaqəli dövriyyə fondlarının dəyişdirilməsi kimi anlayışları özündə əks etdirir. İqtisadi kateqoriya kimi investisiya müəssisə və ayrı-ayrı sahələrin inkişafına şərait yaradır, resursların sərfi həmçinin əldə edilməsini nəzərdə tutur. Müasir dövrdə istər istehsal, istərsə də qeyri istehsal sahələrinə qoyulan investisiyalar mühüm əhəmiyyət kəsb edir ki, bu sahələrdən biri də aqrar iqtisadiyyatdır. Respublika da aqrar bölməyə qoyulan investisiya böhranlı vəziyyətin aradan qalxması, vəziyyətin sabitləşməsi və sahənin inkişafı üçün əhəmiyyətli rol oynaya bilər. İntensiv təsərrüfata sahib ölkələrin təcrübəsinə əsasən aqrar sahədə qoyulan investisiyaların onun uzunmüddətli inkişafında xüsusi rol oynadığını, həmçinin əhalinin real kapitalının artması nəticəsində iqtisadiyyatın istehsal potensialının yüksəldiyini, kəskin rəqabət şəraitində dayanıqlı fəaliyyət göstərdiyini öz məhsullarına münasibətdə qiymətlərin daha çevik tənzimləndiyini sübut edir. Lakin qeyd etmək lazımdır ki, aqrar sahə üzrə özəlləşdirmə siyasəti buraya investisiya qoyuluşlarının həcmini artırsa da həmin sferaya kapital qoyuluşlarının nisbi səviyyəsi yenə də aşağı səviyyə də qalmaqdadır ( İ. İbrahimov, 2016). Həmçinin aqrar sfera üçün qoyulan invesisiyaların qaytarılma müddətinin uzunmüddətli olması və yüksək risk daşıması bu sahəyə xarici investorların cəlbini də çətinləşdirir. Məhz qeyd edilən amillərin nəticəsidir ki, son dövrlər Azərbaycanın aqrar bölməsinə xarici və yerli müəssisələr tərəfindən investisiya qoyuluşları həyata keçirilməmişdir. Aqrar sahə

müəssisələrində böyükhəcmli yığımın olmaması və yüksək risk xarakteri aqrar sferada mövcud istehsal və maliyyə probleminin əsası kimi çıxış edir.

**Cədvəl 20. 1995-2014-cü illərdə aqrar sahə üzrə əsas kapitala yönəldilmiş investisiyalar (mln.manat)**

| İllər | Ölkə üzrə əsas kapitala yönəldilmiş investisiyalar | O cümlədən kənd təsərrüfatına | Kənd təsərrüfatının ölkədə xüsusi çəkisi (%) |
|---|---|---|---|
| 1996-2000 | 4553,4 | 38,1 | 0,8 |
| 2000 | 967,8 | 6,5 | 0,7 |
| 2005 | 5769,9 | 40,7 | 0,7 |
| 2010 | 9905,7 | 431,0 | 4,3 |
| 2011 | 12799,1 | 437,3 | 3,4 |
| 2012 | 15407,3 | 648,8 | 4,2 |
| 2013 | 17850,8 | 574,3 | 3,2 |
| 2014 | 17618,6 | 363,9 | 2,1 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

Bəzi araşdırmaların nəticələri göstərir ki, ölkəmiz üçün investisiya qoyuluşlarının aşağı səviyyəli olması məhz aşağıdakı amillərdən asılıdır:

- maliyyə resurslarının azlıq təşkil etməsi
- idxalyönümlü məhsul satışlarının çoxluq təşkil etməsi və bunun nəticəsi kimi yerli istehsalçıların gəlirlərinin azalması
- büdcə münasibətlərinə uyğun olaraq qısa müddət ərzində bütün sferada yenidənqurma həyata keçirilməsi və ərzaq istehsalçılarının maliyyə itkilərinin düzgün kompensasiya olunmaması.

Ümumiyyətlə aqrar sahəyə qoyulan investisiyalar özünü 2 aspektdə göstərir: 1) Aqrar istehsalın maddi-texniki bazasının əsas kapital investisiyaları əsasında qurulması və inkişaf etdirilməsi. Burada kənd təsərrüfatı və sənaye məhsulları arasında qiymət fərqliliyinin aradan qaldırıması ilə kənd təsərrüfatı əmtəə istehsalçılarına müəyyən güzəştlərin (qısa və uzunmüddətli ödəmə qabiliyyətinin yüksəldillməsi) verilməsi nəzərdə tutulur. 2) Əlverişli investisiya mühitinin formalaşdırılması və bununla aqrar-sənaye müəssisələrinin möhkəmləndirilməsi və maliyyə vəziyyətinin stabilləşdirilməsi. Respublika da aqra sahədə investisiyaların həcminin artırılması həmçinin regionların bazar iqtisadiyyatı şəraitində inkişafını təmin etmək üçün sahibkarlığın inkişafı əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, son dövrlər ölkə iqtisadiyyatına xarici kapitalın həcminin artması xarici investorların da ölkəmizə marağının artmasına səbəb olmuşdur. Bunun bir digər səbəbi də ölkəmizin əlverişli coğrafi mövqeyi, təbii resurları olması, ixtisaslı kadr potensialının olması, ucuz işçi qüvvəsi, mühüm tranzit yolları üzərində yerləşməsi istehsal olunan məhsulun səmərəliliyi və dünya bazarına çıxarıla bilməsi baxımından əhəmiyyət kəsb edir. Həmçinin ölkə ərazisində xarici investorların qanunla hüquqların qorunması üçün bütün normativ aktlar qəbul edilmişdir. Daxili və xarici investisiyaların stimullaşdırılması baxımından investisiya fəaliyyətinin qanunvericilik bazasının formalaşdırılması və təkmilləşdirilməsi vacib amildir ki, buraya da vergi, gömrük, maliyyə, valyuta, tarif və qeyri-tarif tənzimləmələri nəzərdə tutulur. Kənd təsərrüfatı sektorunda invetisiya cəlbediciliyi anlayışı xüsusi əhəmiyyət kəsb edir və o, bir çox amillərin təsiri altında formalaşır. İnvestisiya cəlbediciliyi müəssisə üçün investisiya fəaliyyətinin aktivləşdirilməsində əsas şərtdir və bu dövlət dəstəyi üçün imkan verir ki, məqsədli proqramların maliyyələşdirilməsi, ssudalar və subsidiyalar, eləcə də dotasiyalar üçün şərait yaradır. İnvestisiya səmərəliliyi investisiya cəlbediciliyinə təsir göstərir. Bunu kapital qoyuluşlarına iqtisadi səmərəliliyi kimi də qeyd etmək olar ki, bu da 2 qrupa ayrılır: 1) təsərrüfat fəaliyyətindən asılı olan daxili amillər 2) təsərrüfat fəaliyyətindən asılı olmayan xarici amillərdir. Burada kənd təsərrüfatı sektoruna kapital qoyuluşlarının olması nəticəsində iqtisadi səmərinin aşağı olması xarici amillərə misal göstərilə bilər. Bu problemlərin dövlət səviyyəsində həlli zəruri xarakter daşıyır əks halda hər hansı bir iqtisadi səmərədən söhbət gedə bilməz. Kənd təsərrüfatında iqtisadi səmərəliliyin yüksəldilməsi üçün bir sıra tədbirlər görülür ki, bunlara da aşağıdakıları misal göstərmək olar:

- təcrübədə uğur qazanan obyektiv layihələrin tətbiqi və qeyri-obyektiv layihələrin kənarlaşdırılması
- xərc qoymaqla iqtisadi səmərə əldə etmək arasında vaxt itkisinin aradan qaldırılmasına səbəb olan obyektin tikilməsi və ya mənimsənilməsi.

- vəsait qoyarkən kompleksliyin təmin edilməsi(məsələn əlaqəli predmetlərin yaxın yerləşdirilməsi)
- İnvestisiyanın fəaliyyətdə olan sahənin yenidən qurulmasına yönəldilməsi.Bunun sayəsində qoyulan xərcdən 2-3 dəfə daha çox gəlir əldə etmək ehtimalı böyükdür.
- kapital qoyuluşunun bir neçə obyektə xırdalanması əvəzinə konkret gəlir gətirən sahə üzrə sərf olunması
- elm və texnikadan istifadədə iqtisadi rejimin gözlənilməsi.

Misal olaraq müəyyən bir məhsul üzrə qoyulan kapital 1 il sonra onun xərcini ödəməyə imkan verirsə başqa bir məhsulda isə bu hal daha tez və ya gec baş verə bilər. Kənd təsərrüfatında investisiya cəlbediciliyi iqlim şəraitindən də asılı olmaqla onun iqtisadi səmərəsi istehsal və sosial infrastrukturun olması, vergi güzəştlərin olması və maliyyə vəziyyəti ilə əlaqəlidir. İndi isə investisiyanın aqrar sahədə əhəmiyyətinə digər ədəbiyyatlardan nəzər salaq.

İnvestisiya həm makro həm də mikro səviyyə də təsərrüfatın vacib elementi olub ölkənin, təsərrüfatın və fərqli subyektlərin gələcək fəaliyyətini müəyyən etməklə iqtisadiyatın hərəkətverici qüvvəsinə çevrilir. Aqrar iqtisadiyyatda investisiyaya onun gələcək inkişafı təmin edən və hazırki böhran vəziyyətindən çıxaran amil kimi baxılmalıdır. İnvestisiya iqtisadiyyatda və eləcə də aqrar sferada aşağıdakı bölmələrdən ibarətdir:

- pul vəsaiti, qiymətli kağız və paylar, bank əmanətləri və səhmlər
- daşınar və daşınmaz əmlak olmaqla bina, qurğu, avadanlıq və s.
- qanunla rəsmiləşdirilmiş elmi-təcrübə və intellektual sərvətlər
- texnoloji kommersiya eləcə də bu və ya digər şəxs tərəfindən hüquqları əldə edilən patentlər
- maddi-texniki vəsaitlərdən istifadə hüququnun əldə edilməsi.

Aqrar sahədə investisiya yatırımları müxtəlif istiqamətdə həyata keçirilir və onlar xüsusiyyətlərinə görə 2 qrupa bölünür: portfel və real investisiyalar. Portfel investisiyalar vəsaitin səhm, istiqraz və ya digər müəssisənin aktivlərinə

yerləşdirilən vəasit hesab olunur. Real investisiya isə əldə olan vəsaitin faktiki müəyyən bir sahə üzrə məsələn, bina alınması və ya yenidən qurulması, bina üçün yeni avadanlıqların alınması və s. nəzərdə tutur. Bu isə öz növbəsində material və qeyri material aktivlərə pulun avans edilməsidir. Müasir bazar iqtisadiyyatı yolu tutan Azərbaycan aqrar sferanın yeni texnika və texnologiya əsasında məhsul istehsalının əldə olunması (səmərəliliyin artırılması), idxaldan asılılığın azaldılması, həmçinin ixrac yönümlü kənd təsərrüfatı məhsullarının istehsal edilməsi üçün aqrar sferaya kapital qoyuluşları edir və bu investisiya siyasəti aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

- investisiyanın mərkəzləşdirilməsi, kapital qoyuluşlarının ümumi həcmində müəssisənin şəxsi payının artırılması, investisiya mənbələrindən olan amortizasiya ayırmalarının rolunun artması
- mərkəzləşdirilmiş kapital qoyuluşlarının qaytarılması
- layihələrin dövlət və kommersiya maliyyələşdirilməsinin genişləndirilməsi
- sahə üzrə ayrılan dövlət büdcə vəsaitlərinin xərclənməsinə nəzarətin həyata keçirilməsi
- xarici investisiyaların həcminin artırılması.

Ümumiyyətlə müəyyən bir müəssisənin təkrar istehsal prosesini həyata keçirə bilməsi üçün investisiya qoyuluşlarının bərpa olunması lazımdır. Aqrar sahədə investisiya qoyuluşlarının stimullaşdırılması üçün isə yeni texnikanın alınmasına və istehsala yönəldiləcək mənfəət vergiyə cəlb olunmamalıdır. Əgər aqrar bölmədə hər hansı böhran vəziyyəti hökm sürürsə bu zaman dövlət tənzimlənməsi yalnız stimullaşdırıcı amillərin tətbiqi ilə deyil eləcə də birbaşa investisiya qoyuluşlarının tətbiqi ilə idarə olunur. Kənd təsərrüfatı iqtisadiyyatında məhsullar alınmasının maliyyələşdirilməsində dövlətin məqsədli fondlarından istifadəni artırması, kreditlərini artırması eləcə də yerli maliyyələşmə mənbələrini istifadə etmək zəruridir. Çünki kənd təsərrüfatında şəxsi vəsaiti hesabına kapital qoyuluşları respublika ərazisində yaxın müddət ərzində bir neçə müəssisə tərəfindən həyata keçirilib, araşdırmalar göstərib ki, dövlət və regional mənbələrdən yaxın müddət

ərzində investisiya qoyuluşları kifayət qədər məhsul istehsalını artırmayacaq. Buna görə də dövlət, regional, həmçinin yerli səviyyədə onların hər birinin öhdəliyi qanunvericiliklə müəyyən olunmuş sabit maliyyələşdirmə mənbələrinə bölünməsi müzakirə olunur. Burada vergi siyasətinin və digər ödənişlərin müxtəlif dərəcəsini hər il dəyişməkdənsə sabit şəkildə bir neçə illik aralıqlarla bölünməsi daha məqsədəuyğundur.

Aparılan tədqiqatların nəticəsində məlum olmuşdur ki, ümumilikdə investisiya siyasətinin probleminin həllində aqrar təsərrüfatın rolu əhəmiyyətli dərəcə də böyükdür. Aqrar sahədə iqtisadiyyatın inkişafının və bərpasının həlli yollarından biri də dövlət kreditləridir ki, bu da dövlət tərəfindən qoyulan investisiyalar olmaqla diferensiallaşdırılmış güzəştli vergi dərəcələri ilə kredit verilməsi kənd təsərrüfatında əsas investisiyalardan biridir. Aqrar bölmə iqtisadiyyatın vacib sahələrindən biri olmaqla dövlət himayəsindədir (”Aqrar islahatın əsasları haqqında” Azərbaycan Respublikası qanunu). Nəticə etibarilə dövlət dəstəyinin əsas istiqamətlərindən biri sahə üzrə məqsədli investisiya qoyuluşlarıdır. Bu sahəyə investisiyaların xüsusən xarici investisiyaların cəlbi bir sıra amillərlə bağlı olub özündə vergi güzəştlərinin tətbiqi, dayanıqlı daxili bazarın mövcudluğu, beynəlxalq bazarlara çıxış üçün imkanların yaradılması, işçi qüvvəsinin kifayət qədər olması, eləcə də iqtisadi və sosial infrastruktura dövlət dəstəyini özündə əks etdirir. Aqrar sahəyə investisayalar cəlb edilən zaman onun xüsusiyyətləri nəzərə alınmalıdır çünki aqrar bölmə sahib olduğu torpaq, iqlim, regional xüsusiyyətləri və təbii amillərdən asılı olduğu üçün iqtisadiyyatın digər sahələrindən əsaslı surətdə fərqlənir. Bu fərqliliklər isə aqrar bölməyə qoyulan investisiyaların ödənilmə müddətinə təsir göstərir. Aqrar bölməyə olunan investisiyaların iqtisadiyyatın başqa sahələrindən fərqləndirən xüsusiyyətlərindən biri də investisiya qoyuluşları riskini artıran təbii, ekoloji və ətraf-mühitin mühafizəsi ilə bağlı amillərdir. Beləki təbii amillər istehsalın həcminə, onun son nəticəsinə və investisiya qoyuluşlarının ödənilmə müddətinə təsir göstərir. Araşdırmaların nəticəsi kimi demək olar ki, aqrotexniki, iqtisadi və təşkilati tədbirlərin keçirilməsi

yüksək səviyyədə olsa belə təbii şəraitin yetərsiz olması təsərrüfat sahəsində mənfi nəticələr verə bilər. Həmçinin qiymət amilini də nəzərə alsaq əgər aqrar sahədə istifadə edilən sənaye mənşəli və digər xammal növlərinin qiymətinin artması istehsalçının öz xərclərini ödəməməsi ilə də nəticələnə bilər. Təbii amillər əsasən işıq radiasiyası, su təminatı, relyef və s.kimi xüsusiyyətləri özündə cəmləşdirir və buna misal çəksək ölkəmizdə pambıq istehsalı Kür-Araz ovalığının düzən sahəsi, meyvə-tərəvəz Quba-Xaçmaz, Lənkəran-Astara, Şəki-Zaqatala həmçinin Gəncə-Qazax iqtisadi coğrafi rayonunda yetişdirilməsi də məhz təbii amillərlə bilavasitə əlaqəlidir. Buradan belə nəticəyə gəlmək olar ki, təbii amillərin təsiri aqrar sahədə investisiyaların ödənilmə müddətinə əhəmiyyətli təsir göstərir. İnvestisiya qoyuluşlarının ödənilmə müddətinə təsir edən amillərdən biri də ekoloji tarazlıqla bağlıdır ki, bunun da səbəbi kənd təsərrüfatı və ətraf mühitə vurduğu ziyandır. Qeyd edək ki, ətraf mühitin mühafizəsi məsələsi aqrar bölmə üçün daha mühümdür çünki kənd təsərrüfatı iqtisadiyyatı bilavasitə ətraf-mühitlə əlaqəlidir. Elm-texnologiyanın inkişafı aqrar iqdtisadiyyatın inkişaf etməsinə və iqtisadiyyatın digər sahələri ilə əlaqəsini artırsa da kənd təsərrüfatının ətraf mühitə təsirini gücləndirir. Buna misal göstərək: torpadan istifadənin artması torpaq əmələgəlmə prosesini pozmaqla yanaşı torpağın külək və su eroziyasına təsirini də artırır. Bu baxımdan torpaqların məhsuldarlığının artırılması üçün meliorasiya tədbirləri görülür. Amma bu tədbirlərin görülməsi zamanı meliorasiya və irriqasiya işlərini daha geniş ərazilərdə və müasir standartlara cavab verməyən su kanalları, anbarlar iqtisadi səmərə vermək əvəzinə istehsala yönələn investisiyaların mənfi təsirə məruz qalmasına səbəb olur. Hesablamalar göstərir ki, ölkədə bitkiçilik məhsulları üzrə becərilən 80.7% torpaq sahəsinin 73%-ni suvarma torpaqları təşkil edir və bunu nəzərə alaraq ekoloji tarazlığın saxlanması, ətraf mühitin qorunması məsələsi dövlətin prioritet istiqamətlərindəndir. Müasir aqrar iqtisadiyyatı kimyəvi məhsulların istifadəsindən məhrum etmək qeyri mümkündür. Belə ki, bu istifadə məhsul istehsalının artırılmasına yönəlsə də lakin ondan düzgün istifadə edilməməsi, sanitar-ekoloji normativlərə əməl edilməməsi xüsusən tərəvəz və

bostan bitkilərinə artıq miqdarda gübrə və digər kimyəvi məhsulların vurulması onlarda həddən artıq nitrat birləşmələrin toplanmasına əbəb olur. Bu isə ekoloji tarazlığın pozulması ilə yanaşı həmçinin istehsal miqdarının aşağı düşməsi və investisiya ödəmələri müddətinin uzanmasına səbəb olur. Aparılan araşdırmalar göstərir ki, aqrar viqtisadiyyatın son nəticəsi digər sahələrlə (istehsal və qeyri istehsal) əlaqəli olduğundan investisiyaların təkcə aqrar bölməyə yönəldilməsi iqtisadi səmərə baxımından əlverişli deyil. Ona görə də aqrar iqtisadiyyat üçün yatırılan investisiyalar onunla əlaqədə olan emaledici və xidmət sahələri ilə qarşılıqlı nisbətdə olmalıdır. Misal üçün aqrar bölmənin çayçılıq, üzümçülük, tərəvəzçilik və eləcə də digər sahələri istər emaledici sahə ilə istərsə də məhsul əldə edilməsi üçün xammal və hazır məhsullar anbarlarının, məhsulun satışı ilə bağlı ərazilərin eləcə sosial infrastruktur sahələrinin inkişaf etməsini də əhatə etməlidir. Belə ki, bu nisbətin gözlənilməsi aqrar iqtisadiyyatla yanaşı digər sahələrin də inkişafına səbəb olur və təbii və ekolji amillərdə qeyd etdiyimiz kimi investisya ödəmələrində gecikmə olmadan və yüksək səmərə əldə edilməsinə səbəb olur. İnvestisiyaların aqrar iqtisadiyyatın inkişafındakı rolunu qiymərtləndirərkən görərik ki, investisiya aqrar bölmənin sabitləşdirilməsinin və perspektiv inkişafının əsas vasitələrindən biri olmaqla ümumi iqtisadiyyatda real kapitalın artmasına, iqtisadi səmərəliliyin stimullaşdırılmasına eləcə də rəqabətqabiliyyətli kənd təsərrüfatı sisteminin formalaşdırılmasında əhəmiyyətli rol oynayır. İnvestisiya iqtisadi kateqoriya kimi bir sıra funksiyaları yerinə yetirir ki, istənilən dövləti eləcə də onun aqrar bölməsinin inkişafı bu funksiyalar olmadan mümkün deyil. Aqrar iqtisadiyyat üçün investisiya yatırımlarının bu qədər önəm daşıması aşağıdakı misallarda daha aydın izah olunur:

- geniş təkrar istehsalın həyata keçirilməsi
- elmi-texniki prosesin sürətləndirilməsi hesabına istehsal olunan məhsul keyfiyyətinin yaxşılaşdırıması və onun rəqabət qabiliyyətinin yüksəldilməsi
- aqrar iqtisadiyyatda ictimai istehsalın yenidən qurulması və digər iqtisadi sahələrlə birlikdə proporsional inkişafının təmin edilməsi

- xammal bazasının yaradılması
- məşğulluq probleminin rayon və kəndlərdə tam və ya qismən aradan qaldırılması
- ətraf mühitin mühafizəsi və təbii resurslardan qənaətlə istifadənin təmini.

İnkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq investisiyanın aqrar sahənin inkişafında əsas yer tutduğunu görə bilərik, çünki səmərəli investisiya qoyuluşları real kapitalın həcmini artırmaqla məhsul istehsalının potensialını yüksəldir, yeni texnologiyaya investisiya qoyuluşları isə kəskin rəqabət şəraitində fəaliyyət göstərməyə səbəb olur və məhsul qiymətinin çevik tənzimlənməsində böyük rol oynayır. Qeyd etmək lazımdır ki, aqrar sahə müəssisələrində zəruri miqdarda yığımın olmaması və irihəcmli investisiya risklərinin mövcudluğu aqrar iqtisadiyyatda mövcud olan maliyyə böhranının əsas səbəbi kimi çıxış edir. Ölkəmizdə aqrar sferaya edilən yatırımlara mənfi təsir göstərən amillər aşağıdakılardır:

- maliyyə ehtiyyatlarının axınının zəifləməsi
- yerli bazarlarda idxal yönümlü məhsulların yüksək olması və yerli məhsul satışının zəif olmasına görə istehsalçıların gəlirlərinin azalması.

Aqrar sferada inkişaf və səmərəliliyin yüksəldilməsi baxımından investisiyaların əhəmiyyəti özünü 2 istiqamətdə biruzə verir: 1) əsas kapitala investisiya yatırımlarının edilməsi nəticəsində istehsalda maddi-texniki təminatın möhkəmləndirilməsi 2) Aqrar sahənin inkişafı və məhsuldarlığının artırılması məqsədilə əlverişli investisiya mühitin yaranması .

Araşdırmaların nəticəsinə əsasən demək olar ki, aqrar iqtisadiyyat çox böyük xalq təsərrüfatı sahəsi olduğundan eyni zamanda əhalinin ərzaq və məşğulluq təminatının ödənilməsində əhəmiyyətli yer tutduğundan onun inkişafı və modernləşdirilməsinə aşağıdakı sahələr üzrə investisiya qoyuluşları məqsədəuyğundur (Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi):

- kənd təsərrüfatının maddi texniki bazasının müasirləşdirilməsi

- aqrar bölmədə geniş istifadə olunan suvarma və drenaj şəbəkəsinin yenidən qurulması
- eroziyaya məruz qalan və şoranlaşmış torpaq sahələrinin yenidən təsərrüfata cəlb olunması
- xüsusilə bitkiçilik, heyvandarlıq və toxumçuluq sahələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi
- kənd təsərrüfatı fəaliyyətinin mexanikləşdirilməsi və avtomatlaşdırılması
- pambıq və ipək emalı müəssisələrinin maddi texniki təminatının inkişaf etdirilməsi
- meyvə, tərəvəz, üzüm istehsalı üzrə müasir avadanlıqların tətbiqi
- zeytun və günəbaxan emalının genişləndirilməsi
- hal hazırda istismarda olan istixanaların fəaliyyətinin modernləşdirilməsi
- ixrac yönümlü kənd təsərrüfatı məhsulları istehsalı və qablaşdırılması işinin inkişaf etdirilməsi
- aqromarketinq anlayışının praktikada geniş tətbiqi
- kənd və bölgələrin aqrar təsərrüfatın inkişafı baxımından əlverişli şəraitə gətirilməsi
- aqrar sferada ətraf mühitin mühafizəsi üçün aidiyyəti tədbirlərin görülməsi

Bundan əlavə aqrar iqtisadiyyatda infrastrukatura yatırılan investisiyalar da əhəmiyyət kəsb edir. İnfrastrukturlar yerli və ya xarici şirkətlərin birgə müəssisə, şirkət yaratmalarını, avadanlıq, texnologiya alınması, kredit, qrant və müəyyən köməkliklərin göstərilməsini nəzərdə tutur. Aqrar bölmədə istehsal və ya qeyri-istehsal sahələrinə ayrılan investisiyaların həcmindən asılı olaraq infrastrukturun formalaşması və inkişafına təsir göstərir. Qeyd edək ki, tələb edilən infrastruktura investisiyaların ayrılması bazar iqtisadiyyatı şəraitində mövcud tələblərə uyğun fəaliyyət göstərməyə imkan verir. Buna baxmayaraq kənd təsərrüfatı və onun digər sahələrinə yönələn ümumi investisiyanın həcmi 3.5-4%-dən artıq deyil. Aqrar sahənin sosial və istehsal infrastrukturunun inkişaf etməsi üçün tələb olunan investisiyanın ayrılması zəruridir. Bu məbləğin artırılması onunla əlaqəlidir ki,

məhsul istehsalı və xidmətlərin göstərilməsi mövcud tələbatı ödəmir, regional inkişaf proqramlarının reallaşdırılması, əmək və istehsal şəraitinin yaxşılaşdırılmasına imkan vermir. Kənd bölgələrində və rayon ərazisində yaşayan əhalini nəzərə alaraq bu bölgələrdə istehsal və sosial infrastrukturun mövcud olması aqrar sahəyə investisiya yatırımları və tənzimlənməsi problemlərinə nəzər yetirilməsinə səbəb olur. Araşdırmalar göstərir ki, dövlət dəstəyi və güzəştlərin olmasına baxmayaraq istehsal və sosial infrastrukturun normal fəaliyyət göstərməsi üçün hər il tələb olunan vəsait 30-40% artırılır. Bəzi hallarda infrastruktur fərqlərinin olması regional fərqlərin yaranmasına səbəb olur. Bunun üçün də elmi-texniki tərəqqi, əməyin təşkili mexanikləşdirmə və avtomatlaşdırma həmçinin ehtiyyatlardan səmərəli istifadə edilməsi investisiya siyasəti ilə əlaqəli olmalıdır.

# III Fəsil AZƏRBAYCAN RESPUBLİKASINDA ASK – NIN İNKİŞAF PERSPEKTİVLƏRİ

## 3.1. Azərbaycan Respublikasında ASK – nın inkişafına yönəldilmiş tədbirlər

Azərbaycan Respublikasında ASK-nın inkişaf perspektivləri ilə əlaqəli olub ASK-nın inkişafına yönəldilmiş tədbirləri və kənd təsrrüfatı sektorunun inkişafı problemlərinin həlli yollarını əhatə edir. Burada biz digər 2 fəsildə də olduğu kimi kənd təsərrüfatı sektorunun ölkə iqtisadiyyatı üçün vacibliyindən və bunun nəticəsi kimi sahə üzrə qəbul edilmiş qərarlara, müəyyən normativ aktlara, görülmüş tədbirlərə nəzər yetirəcəyik. Qeyd etmək lazımdır ki, ölkə üzrə aqrar sektorun inkişaf dərəcəsi islahatlar dövrü və islahatlardan sonrakı dövrü əhatə edir. Bu baxımdan biz qeyd olunmuş 2 dövrə baxaq: a) Aqrar islahatlara qədər ölkədə kənd təsərrüfatının vəziyyəti - Respublika 1991-ci ildə müstəqillik əldə etməsinə baxmayaraq mövcud siyasi vəziyyət ölkənin digər sahələrinə olduğu kimi iqtisadiyyatda xüsusilə kənd təsərrüfatına mənfi təsirini göstərmişdir. Belə ki, islahatlar ərəfəsində ölkədə kənd təsərrüfatındakı mövcud vəziyyəti aşağıdakı kimi göstərmək olar ( İbrahimov İ., 2016)

- bitkiçilik və heyvandarlıq sahələrində, sənaye toxumçuluğu, cins-damazlıq təsərrüfatların maddi texniki bazası zəif olmuşdur
- ölkənin ərzaq məhsulları üzrə tələbatı idxal məhsullar əsasında ödənilmiş, bir sıra gündəlik ərzaq məhsulları təminatı tam yerinə yetirilməmişdir
- xarici dövlətlərlə yaradılmış istehsal-iqtisadi əlaqələr pozulmuş və yeni yaradılması nəzərdə tutulan iqtisadi-siyasi münasibətlərdə ləngimələr olmuşdur
- ölkədə mövcud olan iqtisadi böhranın nəticəsi kimi əsas növ kənd təsərrüfatı məhsulları üzrə istehsalın ümumi həcmi aşağı düşmüş və işsizliyin artması müşahidə olunmuşdur
- bank sistemindəki maliyyə və kredit sahələrindəki çatışmazlıq sahə üzrə yardımların göstərilməsinə mane olmuşdur.

- istər ərzaq məhsulları istərsə də digər saənaye sahələri üzrə məhsulların istehsalını artırmaq üçün elmi-texniki tərəqqinin imkanlarından faydalanmaq mümkün olmamışdır.

Bütün bu sadalananlar aqrar sahədə mövcud vəziyyətdən çıxmaq üçün əsaslı dəyişikliklərin olmasını zəruri etmişdir. Bunun əsas həlli yolu kimi isə aqrar sahədə həm institutsional dəyişiklik olmalı, həm də dövlət mülkiyyət forması dəyişdirilərək özəl mülkiyyətçiliyə üstünlük verilməli idi.

Aqrar islahatların həyata keçirilməsi - onu demək olar ki, ölkədə aqrar islahatlar təkcə qəbul edilmiş hüquqi-normativ sənədləri əks etdirmir, eyni zamanda o, respublikada kənd təsərrüfatı üzrə yerinə yetirilən tədbirləri də özündə cəmləşdirir. Bu ASK-nın inkişafına yönəldilmiş tədbirlər olmaqla maliyyə çıxışının asanlaşdırılması, kənd təsərrüfatı istehsal vasitələri bazarının inkişafı və xidmətlərlə təminatının yaxşılaşdırılması, kənd təsərrüfatı sahəsində elm, təhsil, informasiya xidmətinin yaxşılaşdırılması, kənd təsərrüfatı məhsulları istehsalçılarının bazara çıxışının asanlaşdırılması və ekoloji sahədə ətraf mühitin qorunması, təbii resurslardan səmərəli istifadə və təbii amillərin kənd təsərrüfatına təsirinin idarə olunması kimi tədbirləri özündə əks etdirir. Bunu demək lazımdır ki, bu sahələrin hər biri özündə bir neçə alt sahəni də əhatə edir ki, biz araşdırma zamanı həmin alt sahələrin hər birinə nəzər yetirəcəyik.

Maliyyə çıxışının asanlaşdırılması – inkişaf etmiş kənd təsərrüfatı sektoru yaratmaq üçün ilk növbədə istehsalçıların maliyyə resursları ilə təminatının yaxşılaşdırılması, risklərin qiymətləndirilməsi və onların mənfi təsiri hallarının azalması istiqamətində tədbirlər görmək lazımdır. Maliyyə çıxışının asanlaşdırılması maliyyə mexanizminin təkmilləşdirilməsi, aqrar siğortanın inkişafı və aqrar sektora investisiyaların cəlbi məsələlərini əhatə edir. Kənd təsərrüfatı sahəsi üzrə maliyyə mexanizmlərinin təkmilləşdirilməsi - araşdırmalar göstərir ki, son illər aqrar iqtisadiyyata yönəlik kredit portfelində artım müşahidə olunsa da bu miqdarın ümumi iqtisadiyyatda payı azdır. Statistik rəqəmlər əsasında 2016-cı ildə kənd təsərrüfatı və emal sənayesi sahələrinə ümumilikdə 409.7 mln

manat kredit verilmişdir ki, bu da ümumi iqtisadiyyatda 2.4 faiz təşkil etmişdir (https://www.cbar.az). Bunun səbəbinin sahənin özünəməxsus xüsusiyyətləri olması ilə əlaqələndirmək olar və təbii iqlim şəraiti, kapitalın dövretmə sürətinin aşağı olması, aqrar sahə üzrə kredit risklərini azaldan adekvat mexanizmin olmaması, eyni zamanda istehsalçıların maliyyə savadlılığının aşağı olması aqrar sahədə kreditlərin payının ümumi payda az olması ilə səciyyələnir.

Aqrar siğortanın inkişaf etdirilməsi - qeyd edək ki, ölkə də kənd əsərrüfatı məhsulları istehsalçılarının siğorta xidmətlərindən istifadə səviyyəsi çox aşağıdır. Kənd təsərrüfatı bitkiləri və heyvanların siğortası işinə  Aqrolizinq ASC və bir neçə maliyyə - sənaye təşkilatı tərəfindən aparılmışdır. Dövlət tərəfindən kənd təsərrüfatı məhsul istehsalçılarına siğorta dəstəyi təklif olunsa da bu dəstək praktikada həyata keçirilməyib və bunların hamısı ölkə də aqrar siğortanın inkişaf etdirilməsi, eyni zamanda dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi üçün islahatların həyata keçirilməsini zəruri edir. Bu sahənin inkişafınıləngidən əsas amillər təbii fəlakətlər, heyvan və bitkilər üzərində yoluxucu xəstəliklərin olması, iqlim dəyişkənliyi və dünya təcrübəsinə əsaslanan siğorta ehtiyyatı fondunun olmaması göstərilir. Siğorta sahəsi üzrə görüləsi işlərə aşağıdakıları misal göstərə bilərik:

- Kənd təsərrüfatında siğorta sistemi ilə bağlı mövcud qanunvericiliyin təkmilləşdirilməsi-Kənd Təsərrüfatı Nazirliyi və Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən dünya təcrübəsinə əsaslanan beynəlxalq siğorta qanunvericiliyinin təkmilləşdirilməsi
- kənd təsərrüfatında siğorta fondunun yaradılması-buraya aqrar siğortanın əhatə dairəsinin genişləndirilməsi məqsədilə tədqiqatların aparılması aiddir
- siğorta hadisələri reyestrinin hazırlanması-ölkədə kənd təsərrüfatı siğortası risklərinin effektiv qiymətləndirilməsi üçün iqlim məlumatları, təbii fəlakətlər,məhsuldarlıq göstəriciləri və s. üzrə uzunmüddətli məlumat bazasının yaradılması nəzərdə tutulur
- kənd təsərrüfatı məhsulları istehsalçılarının siğorta savadlılığının artırılması.

Aqrar sahəyə investisiya qoyuluşlarının təşviq edilməsi - investisiya qoyuluşları ilə bağlı ətraflı 2-ci fəsildə ümumi məlumat verildiyindən qısa olaraq qeyd edə bilərik ki, burada maliyyə mexanizminin təkmilləşdirilməsi üzrə dövlət tərəfindən aqrar investisiya ehtiyaclarının qiymətləndirilməsi və investisiya layihələrinin hazırlanması eyni zamanda aqrar sahədə investisiya mühitinin yaxşılaşdırılması üzrə tədbirlər həyata keçiriləçəkdir. Burada gözlənilən risk faktoru kimi xarici investorların aqrar sahəyə maraqlarının olmamasını göstərmək olar. ASK-nın inkişafına yönəldilmiş bir digər tədbir kənd təsərrüfatı üzrə istehsal vasitələri bazarının inkişafı və xidmətlərlə təminatın yaxşılaşdırılmasını göstərmək olar. Bu sahənin istiqamətləri aşağıdakılardır:

Torpaq bazarının inkişaf etdirilməsi - torpaq kənd təsərrüfatı məhsulları istehsalı üçün əsas istehsal vasitəsi olduğuna görə aqrar sahədə istehsalın stimullaşdırılması baxımından əhəmiyyətli rola malikdir. Qeyd edək ki, ölkə üzrə kiçik torpaq sahələrinə malik təsərrüfatların üstünlük təşkil etməsi bu sahənin inkişafına mənfi təsir göstərən amillərdən biridir. Digər bir problem isə kənd təsərrüfatına yararlı torpaq sahələrinin öz təyinatı üzrə istifadə olunmamalarıdır. Torpaq sahələri üzrə görüləcək konkret tədbirlər planına aşağıdakıları misal göstərmək olar:

- kənd təsərrüfatı təyinatlı torpaqların alğı-satqı, icarəyə verilməsi və digər prosedurlarla bağlı tədbirlərin sadələşdirilməsi və şəffalığın artırılması
- kənd təsərrüfatına yararlı torpaq sahələrinin istifadəsiz saxlanmasının qarşısını almaq məqsədilə müvafiq mexanizmlərin yaradılması - Kənd Təsərrüfatı Nazirliyi tərəfindən istifadəsiz yararlı torpaq sahələrinin təsərrüfat dövriyyəsinə cəlb edilməsi bağlı müvafiq qanunvericilik aktı işlənib hazırlanmalıdır
- torpaqların konsolidasiyası istiqamətində dünya təscrübəsinə əsaslanan tədbirlərin görülməsi.

Nəzərə alsaq ki, ölkə üzrə kənd təsərrüfatı dövriyyəsinə cəlb edilən torpaq sahələrinin böyük bir qismi suvarılan torpaqlara aiddir onda suvarma sisteminin

inkişafı istehsalın stimullaşdırılması istiqamətində mühüm tədbirlərdən biri kimi qəbul edilməlidir. Bu sahədə görülən tədbirlər: 1) suvarma suyuna olan tələbatın öyrənilməsi - meliorasiya və su təsərrüfatı ilə birlikdə əhalinin tələbatının öyrənilməsi və qiymətləndirmə aparılması 2) suvarma suyu ilə təminatın yaxşılaşdırmaq-kiçik sututarların yaradılması,artezian quyuların qazılması və suvarma kanalların genişləndirilməsi 3) müasir suvarma sistemlərindən istifadə.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının texnika, maşın, avadanlıq təminatının yaxşılaşdırılması və aqroservis xidmətləri bazarının inkişafı hal-hazırda istehsalçıların kənd təsərrüfatı texnikası ilə bağlı təminatı və aroservis xidmətləri ilə bağlı bir neçə aktual məsələ mövcuddur: 1) istismar müddəti başa çatmış texnikanın yeniləri ilə əvəz edilməsi məqsədilə dövlət dəstəyinin davam etdirilməsinin texniki - iqtisadi qiymətləndirilməsi 2) intensiv istehsal və əkin sahələrinin perspektiv struktur dəyişikliyi üçün əkinçiliyin bütün sahələrində texnika parkının yenilənməsi və genişləndirilməsi imkanlarının araşdırılması 3) kiçik və orta təsərrüfat subyektlərinin ehtiyacları nəzərə alınaraq maşın, texnika və avadanlıqlarla təminatın texniki - iqtisadi təhlili 4) aqroexniki xidmətlərin həyata keçirilməsi istiqamətində rəqabət və keyfiyyətin yüksəldilməsi məqsədilə aqroservis xidməti göstərən biznes subyektlərinin genişləndirilməsi.

Gübrə və bitki mühafizə vasitələri ilə təminatın yaxşılaşdırılması - qeyd edək ki, ölkədə əkinlərə verilən mineral gübrələrin həcmi mövcud tələbatla müqayisədə aşağı səviyyəlidir. Belə ki, FAO - nun verdiyi məlumatlar əsasında respublikamız hər hektar əkinə verilən mineral gübrə həcminə görə göstəricilərin aşağı olduğu ölkələr sırasındadır və bu da öz növbəsində məhsuldarlığın aşağı səviyyəli olmasına və məhsul itkisinə səbəb olur.

Heyvandarlığın qarışıq yemlə təminatının yaxşılaşdırılması və damazlıq işinin təşkili - son illər ölkədə heyvandarlıq məhsulları istehsalı artdığına görə heyvandarlığın yemlə təminatı məsələsidə əsas problemlərdən biridir. Eyni zamanda ölkə üzrə intensiv ferma təsərrüfatının inkişaf etməsi və heyvandarlıqda

cins tərkibinin yaxşılaşdırılması üçün damazlıq işinin inkişafı ilə bağlı bir sıra tədbirlər görülür.

Kənd təsərrüfatı üzrə elm, təhsil, informasiya - məsləhət xidmətlərinin inkişafı məsələləri aqrar təhsildə keyfiyyətin artırılması, kənd təsərrüfatı sahəsində elmi tədqiqatlar aparılaraq nəticələrin tətbiqi üzrə mexanizmin təkmilləşdirilməsi və informasiya - məsləhət xidmətinə əsaslanan şəbəkənin təşkil olunması və məlumatların istehsalçılara ötürülməsi məsələlərini əhatə edir.

Kənd təsərrüfatında elmi tədqiqatların aparılması və nəticələrinin təkmilləşdirilməsi mühüm tədbirlər planından biri olmaqla aşağıdakı istiqamətləri əhatə edir (Azərbaycan Respublikası kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi):

- tədqiqatların istiqamətlərinin müəyyən olunması
- elmi tədqiqatlar aparmaq üzrə təşviq mexanizmlərinin inkişaf etdirilməsi
- kənd təsərrüfatı istiqamətli elmi-tədqiqat institutlarının, laboratoriyaların, tədqiqat mərkəzlərinin cihaz və avadanlıqlarla təminatının yaxşılaşdırılması
- nəticələrin iformasiya-məlumat xidmətləri vasitəsilə istehsalçılara ötürülməsinin təmin edilməsi.

Aqrar sahə üzrə informasiya - məsləhət xidməti şəbəkəsinin formalaşdırılması-hazırda ölkədə fəaliyyət göstərən informasiya - məsləhət xidmətləri regionlarda istehsalçıların nəzəri və praktiki təcrübələrinin artırılmasına yönəlik təşkil olunur çünki fermerlər tərəfindən aqrar sahə ilə bağlı olan mühüm məsələlər xüsusilə torpaqla bağlı olan əkmə, becərmə, suvarma, heyvanların saxlanılması və onlara qulluq edilməsi, iqtisadi səmərəliliyin təmin edilməsi üçün zəruri bilikər lazımi qədər deyildir. Təsərrüfatlarda məhsuldarlıq yüksək olmadığından yüksək dəyər yaradan məhsulların istehsalında da problemlər yaranır. Bu məqsədlə istehsalçılarda yüksək bilik və bacarıqların yaradılması zəruri hala çevrilir ki, sahə üzrə informasiya-məsləhət xidmətini tənzimləyən sistemin qurulması və maliyyə dayanıqlılığının artırılması məqsədəuyğundur.

Kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişafı və istehsalçıların bazarlara çıxışının asanlaşdırılması üçün məhsulların yğımdan

sonrakı mərhələdə itkisinin azaldılması, məhsulların keyfiyyətinin yüksəldilməsi məqsədilə bazar infrastrukturunu tənzimləmək mühüm məsələlərdən biridir. Respublikamızda mövcud olan bazar şəraiti məhsul istehsalı ilə məşğul olan şəxslərin öz mallarını müvafiq qiymətə satmasında müəyyən problemlər yaradır və bəzən bu qiymət topdan və pərakəndə satış bazarının inkişaf etməməsi səbəbindən istehsalçılar tərəfindən istehlakçılara 2-3 dəfə daha aşağı olur. İnkişaf etmiş ölkələrin təcrübələri göstərir ki, topdansatış bazarları logistika, ticarət, məlumatların toplanması və yayılması, tələb və təklifə nəzarət etmək imkanları yaradır və bu da daha yüksək əlavə dəyərin yaranmasına yardımçı olur. Bazar infrastrukturunun inkişafının bir digər üstün cəhətlərindən biri də ixracın təşviqinə səbəb olmaqla yanaşı ənənəvi ixrac bazarlarına geniş miqyasda daxil olmağa və yeni ixrac bazarlarına da çıxış imkanları yaradır. Bazar infrastrukturunun inkişafı kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişafını, kənd təsərrüfatı məhsulları üzrə bazarın tənzimlənməsi sisteminin təkmilləşdirilməsi və kənd təsərrüfatı və emal sənayesi sahəsi üzrə məhsulların ixrac təşviqini əhatə edir:

- kənd təsərrüfatı məhsulları üzrə bazar infrastruktunun inkişaf etdirilməsi istiqamətində regionlarda kənd təsərrüfatı məhsullarının yeni və topdansatış və logistika mərkəzlərinin yaradılması, Bakı və digər böyük şəhərlərdə kənd təsərrüfatı məhsullarının pərakəndə satış şəbəkələrinin artırılması, respublika üzrə baytarlıq - sanitariya tələblərinə uyğun müəssisələrin yaradılması, xüsusən kiçik və orta sahibkarlığı əhatə edən kənd təsərrüfatı məhsulları şəbəkəsinin inkişaf etdirilməsi, ”yaşıl marketlər” və “fermer mağazası” şəbəkələrinin yaradılması , istehsalçıların daxili və xarici bazarlara çıxış imkanlarının artırılması məqsədilə yükdaşıma xidmətlərinin tənzimlənməsi və işlərin gedişatı ilə əlaqədar texniki-iqtisadi təhlilin aparılması zəruridir.
- kənd təsərrüfatı məhsulları üzrə bazarın tənzimlənməsi sisteminin təkmilləşdirilməsi dövlət tənzimlənməsi tədbirlərinə aiddir və ölkəmizdə dövlət dəstəyi tədbirləri dəyər zəncirinin ilkin mərhələlərinə fokuslanıb. Qeyd edək ki, bu sahə üzrə dövlətin əsas görməsi lazım olan işlərdən ən mühümü

daxili bazarı ədalətsiz ticarət şərtlərindən qorunması və bununla bağlı institusional sistemin effektivliyinin artırlmasıdır.

Bazar infrastrukturunun inkişafının sonuncu istiqaməti isə kənd təsərrüfatı və emal sənayesi məhsullarının ixracının təşviq edilməsi üzrədir. Bu prioritetin əsas məqsədi Azərbaycanın ixrac bazarının şaxələndirilməsindən ibarətdir. Bunun üçün BMT-nin malların ticarətinə dair məlumat bazasınsa əsasən Azərbaycanın qısa və orta müddət ərzində ixrac edəcəyi məhsullar üçün ilkin bazarlar müəyyən edilməlidir. İxrac təşviqinin perspektiv inkişafı baxımından aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğundur (Azərbaycan Respublikası kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi):

- ”Made in Azerbaijan” brendinin təşviqi - bu sahə üzrə məlumata əsasən müəyyən olunmuş bazarlarda marketinq kompaniyası həyata keçirilməli və həmin məhsulların brendi yaradılmalıdır. Bunun üçün isə marketinq tədbirlərin büdcəsi müəyyən olunmalı və investisiya qoyuluşu iqtisadi baxımdan təhlil edilməlidir. Reklam tədbirlərinin həyata keçirilməsi baxımından milli atributların istifadə , məhsulların beynəlxalq bazarlarda tanınması üçün seminarların keçirilməsi eləcə də məhsullar üzrə milli internet portalının yaradılması zəruridir. Ümumi olaraq isə ixrac təşviqi üzrə görüləcək tədbirlərə potensial ixrac bazarları haqqında fermerlərin məlumatlandırılması, ixracatçıların müəyyənləşdirilməsi, ixrac sənədlərinin əldə edilməsində dəstək verilməsi və s. misal göstərə bilərik.

Aqrar sənaye kompleksinin inkişafı üçün görülən perspektiv tədbirlər sırasına ətraf mühitin qorunması, təbii resurslardan səmərəli istifadənin təşkil edilməsi, təbii amillərin kənd təsərrüfatına təsirlərinin idarə mexanizminin təkmilləşdirilməsi aiddir. Kənd təsərrüfatı təbii amillərdən asılı olan sahə olduğu üçün istehsal fəaliyyətinin qeyri - effektiv təşkili su və torpaq sahələrinin dəyişməsi, eləcə də iqlim dəyişmələrinə mənfi təsir göstərir. Belə mənfi halların yaranmasına kənd təsərrüfatı fəaliyyəti zamanı aqrotexniki qaydalara əməl olunmaması, kimyəvi maddələrdən düzgün istifadə edilməməsi, suvarma suyundan istifadə zamanı şoranlaşmanın artması, suvarma və kollektor - drenaj şəbəkəsinin aşağı səviyyəli

olması yararsız torpaq sahələrinin artmasına səbəb olmuş səhralaşma , şoranlaşma, torpaq eroziyası və torpağın münbit qatının yox olması, qış və yay otlaqlarından düzgün istifadə edilməməsi nəticəsində təbii ot örtüyünün nazikləşməsi, keyfiyyətinin aşağı düşməsi və s. halların yaranmasına səbəb olmuşdur.

BMT-nin Ərzaq və Kənd təsərrüfatı təşkilatının 2011-ci il üzrə verdiyi hesabata əsasən 2080-ci ilə qədər qlobal səviyyədə orta illik temperaturun 4 dərəcə artımı gözlənilir.Bu amil isə atmosfer yağıntılarının qeyri bərabər paylanmasına, su və torpaq səthindən gedən buxarlanmaların artmasına, kolluq və meşəlik sahələrin ərazilərinin azalmasına, küləklərin səmti və intensivliyinin dəyişməsi kimi xarakterizə edilir. Kənd təsərrüfatında iqlim dəyişikliklərinin təsirinin azaldılması və məhsulların iqlim dəyişikliklərinə uyğunlaşdırılması üçün əkin və otlaqlarda səmərəli idarəetmənin təşkili və qanunvericilik bazasının təkmilləşdirilməsi lazımdır. Aqrar sahədə ətraf mühiti mühafizə mexanizmlərinin təkmilləşdirilməsi - bitkiçilikdə və heyvandarlıqda karbon qazı emissiyasının azaldılması, tullantısız istehsal texnologiyasının tətbiqi, eləcə də kənd təsərrüfatının ətraf mühitə təsirinin minimuma endirilməsi istiqamətlərini özündə cəmləşdirir. Torpaqlardan və su ehtiyyatlarından səmərəli istifadə mexanizminin təkmilləşdirilməsi kənd təsərrüfatına yararlı torpaq sahələridnən istifadənin təmin edilməsində, şoranlaşmaya məruz qalan torpaqların istehsala qaytarılmasında, otlaq və biçənəklərin qorunub saxlanması kimi tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Torpaqların qorunması üçün torpaq resurslarının monitorinqini həyata keçirməli, əkin sahələrinin kimyəvi strukturunu özündə əks etdirən aqrokimyəvi torpaq xəritəsi hazırlanmalı, əkinçiliyin ikişafı üçün torpaqların deqradasiyasını azaldan texnologiyalardan istifadə olunmalı, yararsız torpaqların istehsala qaytarmaq üçün onların meliorasiya və rekultivasiya tədbirlərinin görülməsi zəruridir. Digər tərəfdən kənd təsərrüfatında məhsul istehsalını su olmadan təsəvvür etmək mümkün deyil və təəssüf ki, ölkəmiz şirin su ehtiyyatlarına görə inkişaf etmiş ölkələrdən xeyli geri qalır. Qeyd etdiyimiz kimi ölkə torpaqlarından

əldə edilən bitkiçilik məhsullarının əksəriyyəti suvarma torpaqlardan əldə edildiyinə görə şoranlaşmaya məruz qalan ərazilərində sahəsi böyükdür.

**Cədvəl 21. Azərbaycanda suvarılan torpaqların şoranlaşma vəziyyəti, hektarla**




**Mənbə:** Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti https://ww.mst.gov.az

Bunun qarşısını almaq üçün köhnə boru kəmərləri bərpa edilməli, sızıntıların azaldılması üçün kəmərlər 2-3 ildən bir təmizlənməli, suvarma kanallarına investisiyalar yönləndirilməli və suvarılan torpaqlarda şoranlaşmanın qarşısını almaq üçün layihələr hazırlanmalıdır. Ümumilikdə su resurslarından səmərəli istifadəni təmin etmək üçün suvarma texnologiyalarının tətbiqi genişləndirilməli, irriqasiya işləri artırılmalı, su ehtiyyatlarının monitorinqi həyata keçirilməli, dağ çaylarında sel sularının effektiv tənzimlənməsi, şoranlaşmaya məruz qalan ərazilərdə drenaj sisteminin tətbiq edilməsi və s. texniki - iqtisadi tədbirlər görülməlidir.

Ekoloji təmiz kənd təsərrüfatı istehsalının inkişaf etdirilməsi ölkəmizdə əsası 90-cı illərdə qoyulmuşdur. 2008-ci il 13 iyun tarixində isə "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" qanun qəbul olunmuşdur. Bu qanun aqrar sahədə ekoloji

təmiz kənd təsərrüfatı istehsalını təmin etmək məqsədilə sosial, iqtisadi və ekoloji problemlərin həlli üçün hüquqi-normativ sənəd rolunu oynayır.

## 3.2. Azərbaycan Respublikasının kənd təsərrüfatı sektorunun inkişafı problemlərinin həlli yolları və perspektivləri

Dissertasiya işinin 3 - cü fəslinin sonuncu sualı ölkəmizdə kənd təsərrüfatı sektorunun inkişafı problemlərinin həlli yolları və perspektivləri ilə əlaqəli olub dövlət tənzimlənməsi tədbirlərini, kənd təsərrüfatında səmərəlilik anlayışı və onun yüksəldilməsi yollarını eyni zamanda dövlət tərəfindən kənd təsərrüfatının inkişafı üçün görüləcək strateji tədbirləri özündə əhatə edir. İstiqamətlərin hər birisini nəzərdən keçirib nəticə və təkliflər bölməsində bütün fəsilləri qruplaşdıraraq mövzu ilə bağlı yekun fikirlər bildirilmişdir. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı sektorunda problemlərin həlli üçün aqrar islahatların keçirilməsi və onların təkmilləşdirilməsi zəruridir. Aqrar islahatların əsas istiqamətləri torpaq münasibətləri üzərində qurulub və onun yenidən təşkilini həyata keçirməkdən ibarətdir. Torpaq islahatları torpaq üzərində təsərrüfatçılıq formaları və ondan səmərəli istifadə üçün eynihüquqlu imkanların yaradılmasını nəzərdə tutur. Bu islahat inhisarçılığı aradan qaldırmaqla hər bir sahənin konkret sahibinin olmasına səbəb olur və torpaqdan istifadə bəzi hallarda pullu olaraq tədricən torpaq bazarının yaranmasına səbəb olur. Aqrar islahatların nəticəsi kimi təkcə torpaq münasibətlərini deyil, həm də aqrar iqtisadiyyatda çoxukladlılığın yaranmasınada göstərmək olar və bunun nəticəsi kimi kənd təsərrüfatında azad sahibkarlıq və özəlləşdirmə münasibətləri yaranır. Kənd təsərrüfatında inkişafı təmin etmənin bir digər məsələsi isə aqrar sahədə səmərəlilik anlayışını inkişaf etdirməkdən ibarətdir. Səmərəlilik iqtisadi məzmuna malik olub istehsalın keyfiyyətini səciyyə etməklə alınan nəticə ilə çəkilən xərcin kəmiyyət nisbətini ifadə edir. Başqa sözlə desək eyni və ya daha az maddi və əmək hesabına daha çox məhsul istehsal etmək və iqtisadi nəticələrə nail olmaqdır. Aqrar sahədə iqtisadi səmərəlilik anlayışına bir çox amillər təsir göstərir. Bu amillər bir-biri ilə qarşılıqlı əlaqə və asılılığa malik

olmaqla istehsalın inkişafına və səmərəliliyin yüksəldilməsinə təsir göstərir. Bu amillərə təbii, texniki- texnoloji, təşkilati, sosial, iqtisadi və siyasi amilləri misal göstərə bilərik. Sadalanan amillər kənd təsərrüfatında səmərəliliyin yüksəldilməsinə istiqamətlərinə müxtəlif dərəcəli təsir göstərərək hər bir sahə və məhsulun formalaşmasında rol oynayırlar. Aqrar sahədə iqtisadi səmərəliliyin əsas göstəriciləri əmək məhsuldarlığının yüksəldilməsi, istehsal xərclərinin aşağı olması, itkilərin azaldılması və məhsul keyfiyyətinin artırılmasından ibarətdir və biz bu fəsildə bunlara aid misallar göstərəcəyik.

Aqrar sahədə səmərəlilik göstəricilərindən əmək məhsuldarlığın artırılması minimum əmək sərfi ilə maksimum məhsul istehsal etmək anlayışıdır. Əmək məhsuldarlığının artması geniş təkrar istehsala və iqtisadi tərəqqinin yaranmasına səbəb olur. Sahibkarlığın inkişafı, bazar münasibətlərinin formalaşması və istehsalın səmərəliliyi əmək məhsuldarlığının yüksəldilməsi ilə sıx əlaqəlidir. Kənd təsərrüfatında istehsalın spesifik xüsusiyyətləri və əmək məhsuldarlığının yüksəldilməsi texniki, iqtisadi, təşkilati kompleks kimi baxılmalıdır. Misal deyə bilərik ki, müasir tələblər əsasında qurulan taxıl istehsalında müasir texnologiyanın tətbiqi adi texnologiyaya nisbətən əmək məsrəfinin azalmasına səbəb olur. Kənd təsərrüfatında əmək məhsuldarlığı müəyyən vaxt ərzində sərf edilən əmək qarşılığında istehsal olunan məhsulun miqdarını göstərir ki, bunu da aşağıdakı düsturda görmək olar aydın görmək olar:

$$\text{Ə}.M = \text{İ}/M$$

Burada Ə.M əmək məhsuldarlığını, İ - istehsal olunan məhsula sərf olunan vaxtı , M isə məhsulun istehsal miqdarını göstərir. İstehsal olunan məhsula görə əmək məhsuldarlığını hesabladıqda məhsulun istehsal miqdarını onun istehsalı üçün sərf olunan vaxta nisbətini hesablamaq lazımdır. Kənd təsərrüfatında əmək məhsuldarlığının yüksəldilməsinin əhəmiyyətli tərəflərindən biri də budur ki, kənd təsərrüfatı digər istehsal sahələri üçün xammal rolunu oynayır və eyni zamanda da ərzaq təminatının əsas mənbəyidir. Amma əmək məhsuldarlığının təkcə artımını deyil, həm də dinamik artımını təşkil etmək lazımdır. Belə ki, bu artım həm də

kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirlərinin optimal artırılması kimi də çıxış etməlidir. Əmək məhsuldarlığının artmasının zəruri tərəfləri məhsul istehsalının artımı, ÜDM - nin artımı, məhsulun maya dəyərinə təsiri, cəmiyyətin tələbatının ödənilməsi və həyat şəraitinin yaxşılaşdırılmasıdır.

Səmərəliliyin artırılmasında 2-ci göstərici istehsal xərclərinin aşağı salınmasıdır. Kənd təsərrüfatında məhsul xərclərinin aşağı salınması maya dəyəri ilə ölçlülür. Məhsulun maya dəyəri - məhsul istehsalına çəkilən xərclərin pulla ifadəsidir. Kənd təsərrüfatında maya dəyərinin aşağı salınması tədbirlərinə əkinçilik və heyvandarlıqda məhsuldarlığın artmasını, idarəetmə və xidmət xərclərinin azaldılmasını, istehsal proseslərinin avtomatlaşdırılması (təkmilləşdirilməsi), istehsal, maddi-texniki və maliyyə vəsaitlərindən səmərəli istifadənin təşkil edilməsi lazımdır. Eyni zamanda xərclərin düzgün uçotu aparılmalı, istehsal və xidmətlərdə izafi xərclərə yol verilməməlidir. Xərclərin aşağı salınması istehsalın iqtisadi səmərəliliyini artırmaqla istehsal sahəsinin spesifik xüsusiyyətlərini nəzərə almaqla mövcud resurslardan səmərəli istifadə edilməsini təşkil edir. Son olaraq qeyd etmək olar ki, kənd təsərrüfatında məhsulun maya dəyərinin azalması sahibkarlıq təsərrüfatlarının möhkəmlənməsinə, ərzaq məhsullarının qiymətinin aşağı salınmasına və əhali gəlirlərinin artmasında böyük rol oynayır.

Kənd təsərrüfatında itkilərin azaldılması və məhsul keyfiyyətinin yüksəldilməsi arasında əlaqə mövcuddur. Belə ki, itkilər iqtisadi baxımdan vaxt və istehsal prosesini əhatə etməklə məhsulun formalaşdırılmasından istehlakçıya çatdırılmasına qədər olan dövrü əhatə edir. Kənd təsərrüfatında itkilərin azaldılmasının başlıca məqsədi kimi mövcud resurslardan yəni torpaq, texnika, texnologiya, maliyyə və s. itkilərin qarşısını almaqla keyfiyyətli və daha aşağı məsrəfli məhsul istehsalını həyata keçirməkdir. Qeyd etdiyimiz kimi itki və məhsul keyfiyyəti anlayışları əlaqəli olduğundan ehtiyyatlara qənaət edilməsi və tələbatların daha dolğun ödənilməsini təmin edir. Keyfiyyət özü təklikdə məhsulun təyinatına görə öz funksiyasını yerinə yetirməsi, hər hansı zövq və ya tələbatı

ödəməsi başa düşülür. Qeyd edək ki, məhsulun bir sıra yeni xassələrini müəyyən etməklə keyfiyyətin artırılmasına nail olmaq mümkündür. Məsələn südün əsas xassəsi olan yağlığın artırılması onda müsbət keyfiyyət dəyişikliyinə səbəb olur və bu da istehlakçı tələbini lazımi səviyyədə ödəyir. Məhsulun keyfiyyətinin səmərəliliklə əlaqəsini əmək, maliyyə və material məsrəfinin vahidi hesabına istehsalın və gəlirin həcminin artması kimi göstərmək olar. Bütün bu izah olunanlar məhsul keyfiyyətinin iqtisadi mahiyyətini özündə əks etdirir. Digər tərəfdən məhsul keyfiyyətinin siyasi yönləri də var ki, yeni mülkiyyət münasibətləri şəraitində keyfiyyətli məhsul bazar münasibətlərinin formalaşdırılmasını sürətləndirir, elmi - texniki tərəqqinin tətbiqi yeni texnoloji avadanlıqlardan istifadəni artırır, əhalinin məhsul istehlakını hər hansı məhsula deyil keyfiyyətli məhsulla ödəməsini təmin edir.

Kənd təsərrüfatı inkişafı problemlərinin həlli yolları təkcə səmərəliliyin təmin edilməsi və qəbul olunmuş hüquqi - normativ aktlarla hüdudlanmır, eyni zamanda aqrar sahə üzrə dövlət tənzimlənməsini əhatə edir. Tənzimləmənin bir digər müsbət tərəfi də kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyinin artırılması məqsədi də daşıyır.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dissertasiya işində aqrar sektorun milli iqtisadiyyatın inkişafında rolu araşdırılmış və aşağıda qeyd olunan nəticələr əldə edilmişdir:

- Aqrar sənaye kompleksinin ölkə inkişafındakı rolu və yeri araşdırılarkən dövlət tərəfindən kənd təsərrüfatı sahəsi üzrə görülən tədbirləri və qarşıya qoyulan strateji hədəfləri göstərə bilərik. Əsasən kənd təsərrüfatında özəlləşdirmə işlərinin görülməsi və aqrar sahibkarlığa dəstək və kənd təsərrüfatının maddi texniki bazasının təkmilləşdirilməsi üçün tədbirlər görüldüyünü demək olar. Digər tərəfdən dövlət aqrar sektorun iqtisadi mexanizminin təkmilləşdirilməsi, ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi, regionların sosial-iqtisadi inkişafı, kənd təsərrüfatı sahəsi üzrə emal sənayesini inkişaf etdirmək, özəlləşdirmə sahəsində dövlət proqramlarının hazırlanması, beynəlxalq təcrübəyə əsaslanaraq ölkəyə xarici investisiyaların cəlb edilməsini həyata keçirmək, mövcud potensialdan səmərəli istifadə edilməsi ilə bağlı tədbirləri aid etmək olar.
- Kənd təsərrüfatının önəmli problemlərindən biri istehsalçılar və sənaye müəssisələri arasında əlaqələrin zəif olmasıdır və bu aqrobiznesin inkişafı üçün problem yaradır. Bu problemi aradan qaldırmaq üçün strateji hədəf qarşıya qoyulmuş və xarici və daxili bazarlarda rəqabətqabiliyyətli məhsul istehsalını həyata keçirmək, idxalı əvəzləyən kənd təsərrüfatı və emal sənayesi məhsullarını artırmaq, fermerlər və müəssisələr arasında əlaqələri inkişaf etdirmək, dövlət tərəfindən sahibkarlığın dəstəklənməsi, aqrobiznesin inkişafı üçün dəstək infrastrukturunu formalaşdırmaq üçün dövlət tərəfindən tədbirlər planı hazırlanmışdır.
- Kənd təsərrüfatının ən önəmli sahələrindən biri ölkədə ərzaq təhlükəzisliyinin təmini ilə bağlıdır. Araşdırmaların nəticəsi göstərir ki,

ərzaq təhlükəsizliyinin təmini üçün ən ideal variant daxili istehsalı artırmaq və kənd təsərrüfatında istehsal səmərəliliyə nail olmaqdır. 2015-2018 əhalinin əsas kənd təsərrüfatı məhsulları ilə özünü təminetmə səviyyəsinə nəzər yetirdikdə görürük ki, müəyyən olunan dövrdə məhsullar üzrə artım müşahidə olunsa da bəzi məhsullar üzrə -süd (246,2 kq-dan 240,2 kq-a düşmüş) və bostan məhsulları (43,6-dan 35,3 - kq-a düşmüş) məhsullarında azalmalar müşahidə olunmuşdur. Burada ərzaq təminatını yerinə yetirmək üçün keyfiyyətli ərzaq məhsulları istehsalını artırmaq, bu sahədə yüksək risklərin idarə edilməsi, adekvat bazar tələblərinə uyğunlaşma, inkişaf etmiş kommersiya infrastrukturunun qurulması, xarici ölkələrlə aktiv ticarət əlaqələrinin qurulması və s. tədbirlər görülməlidir.

- araşdırılan bir digər sual kənd təsərrüfatına cəlb edilən investisiyalar ilə bağlıdır. Dövlət Statistika Komitəsinin 1995-2014-cü illərdə aqrar sahə üzrə əsas kapitala yönəldilmiş investisiyaların həcmi 38,1 mln manatdan 363.9 mln manata yüksəlmiş eyni zamanda kənd təsərrüfatının ölkə üzrə həcmi 0.8 %-dən 2.1 %-ə qalxmşdır. Buradakı kapital və ümumi faiz artımını ümumi iqtisadiyyatın artımı ilə əlaqələndirə bilərik. Amma onu da qeyd edək ki, aqrar sektora xarici investorların cəlbi hələ də problemlidir. Bunun başlıca səbəbi isə sahənin qısamüddətli dövr üçün az gəlirli olması və müəyyən sahələrində yüksək risk daşıması ilə əlaqəlidir.
- Araşdırmaların nəticəsi göstərir ki, ölkəmizdə uzun dövrlər ərzində aqrar sahibkarlıq mühitinin yaxşılaşdırılması ilə bağlı hüquqi normativ aktlar qəbul olunmuşdur. Amma bu qanunların icra edilmə səviyyəsi kifayət qədər olmadığından aqrar sektorun inkişafında müəyyən ləngimələr olmuşdur. Qəbul edilmiş qərarlar və yerinə yetirilən islahatlar nəticəsində kənd təsərrüfatında müəyyən irəliləyişlər olsa da inensiv təsərrüfat forması ölkəmizdə tam formalaşmamışdır. Qarşıya qoyulan problemlərin həlli üçün ilk növbədə müasir texnika və texnologiyadan istifadə etmək, mövcud resurslardan səmərəli istifadə etmək, məhsulun istehsalından istehlakçıya

çatdırılması mərhələsinədək dayanıqlı sistem qurmaq, şoranlaşma, su çatışmazlığı və ekoloji problemlərlə bağlı məsələlərdə ciddi tədbirlər görülməlidir.

- Kənd təsərrüfatında dövlət tənzimlənməsi tədbirləri zəruri olmasına baxmayaraq tənzimləmənin miqyasi, üsul və vasitələri aqrar sektorun potensialını düzgün nəzərə almadıqda inkişaf əvəzinə istənməyən nəticələrə də gətirib çıxara bilir. Bu baxımdan ilk növbədə aqrar sektorda iqtisadi artım davamlı olaraq təmin edilməli, istehsal və istehlak münasibətləri optimallaşdırılmalı və nəticə etibarilə aqrar bölmə üzrə iqtisadi inkişafa nail olma strateji hədəf kimi qəbul edilməlidir.
- Kənd təsərrüfatı məhsul istehsalçılarının güzəştli kredit imkanları əldə etməsi, aqrar sektorun inkişafına istiqamətlənmiş layihələrin maliyyələşdirilməsi, məqsədli subsidiya və digər dövlət yardımlarının həcminin artırılması, istehsalçıların məhsul istehsalı zamanı zəruri bahalı texniki vasitələri və onların ehtiyyatlarını güzəştli şərtlərlə əldə edə bilməsi imkanları yaradılmalıdır.
- İxrac potensialını inkişaf etdirmək məqsədilə dövlət vergi və rüsum siyasətində istehsalçılara güzəştlərin verilməsi, ixrac olunan məhsulun beynəlxalq bazarlarda tanınması məqsədilə reklam təşkilatları ilə əməkdaşlığın yaradılması, heyvandarlıq və bitkiçilik üzrə idxal olunan yüksək sort məhsulların ölkəmizdə istehsalı üçün tədqiqat işlərinin aparılması tədbirlər planına aid olmalıdır.
- Aqrar sektor təkcə iqtisadi yönümlü deyil həm də sosial əhəmiyyəti ilə də ön plana çıxmalıdır. Torpaqların qorunması məqsədilə şoranlaşmaya qarşı meliorasiya və rekultivasiya tədbirlərin görülməsi, məhsul istehsalında səmərəliliyin əldə edilməsi üçün sahibkarlara elmi-praktiki tədbirlərin keçirilməsi, məhsul keyfiyyətinin artırılması üçün "ekoloji təmiz məhsul" istehsalınının artırılması, maliyyə resurslarından düzgün istifadə edilərək kənd təsərrüfatının konkret gəlir gətirən və problemli sahələrin həllinə

yönələn bölməsinə kapital qoyuluşlarının keçirilməsi və ümumi olaraq ölkədə ASK - nın inkişafına yönələn müasir layihələrin və tədbirlərin keçirilməsi məqsədə uyğundur.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində


1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
2. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi
3. Azərbaycan Meliorasiya və Su təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti
4. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi
5. Azərbaycan 2020: "Gələcəyə Baxış" İnkişaf Konsepsiyası
6. Abbasov A. "Qloballaşma şəraitində ölkənin aqrar ərzaq təhlükəsizliyinin təmin edilməsi mexanizminin təkmilləşdirilməsi. Aqrar islahatların ilkin nəticələri və perspektivlər. (Respublika elmi-praktik konfransının materialları)", Bakı, 2003
7. Ataşov B.X "Ərzaq təhlükəsizliyinin aktual problemləri", Bakı: Elm, 2005, 336 s
8. Alıyev İ.H. "Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi", Bakı, 2003, səh-315
9. Alıyev İ.H. "Aqrar sahənin inkişafının təkmilləşdirilməsi və regionlarda islahatların keyfiyyətcə səmərəli aparılması", Bakı, 2004, səh-110
10. Ataşov Bəyalı "Aqrar sahədə struktur və səmərəlilik problemləri", Kooperasiya nəşriyyatı, Bakı, 2017, səh-536
11. Bağırzadə E. "Aqrar islahatların hüquqi tənzimlənməsi", Referat işi, Bakı, 2004
12. Eldar Quliyev. "Aqrar İqtisadiyyat", Bakı 2015, Kooperasiya nəşriyyatı, 322 s.
13. Əlibəyov N.V. "Dövlət sahibkarlığının formalaşdırılması. AzETKTİ və Tİ-da keçirilmiş aqrar islahatların 10 illiyinə həsr olunmuş konfrans materialları", Bakı: AzETKTİ və Tİ-nin mətbəəsi, 2005, 184-190 s.
14. Əliyev İ.N. "Heydər Əliyev və Azərbaycan kənd təsərrüfatı", II kitab, Bakı: «Ziya-Nurlan», NPM, 2001, səh-122

15. Həsənov. R.T. “Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları”, Bakı: Elm, 1998, səh-343
16. Xəlilov H.A, “Aqrar iqtisadiyyatda sistem transformasiyaları və modernləşdirmə şəraiti”, Bakı, 2005, səh-228
17. İbrahimov İ.H. “Aqrar iqtisadiyyatın aktual problemləri”, Bakı: Təhsil EİM, 2002, 220 s.
18. İbrahimov İ.H. “Aqrar iqtisadiyyatın əsasları”, Bakı: Səda, 2003, 154 s.
19. İsmət Abbasov, “Azərbaycan və dünya ölkələrinin kənd təsərrrüfatı”, Şərq-Qərb nəşriyyat evi, Bakı, 2013, səh-712
20. Məmmədov H. “Azərbaycan Respublikasında iqtisadi islahatlar: ilkin nəticələr, problemlər və perspektivlər ( Elmi-praktik konfransın materialları)”, Bakı, 2003, səh. 66-75
21. Məmmədov Q, Xəlilov M. “Ekologiya və Ətraf mühit”, Bakı: Elm, 2004
22. Rüstəmov R.M. “Aqrar sahədə davamlı inkişafın formalaşması məsələləri”, Azərbaycan Aqrar Elmi, 2006, № 2, s. 182-186
23. Rövşən Quliyev. “Aqrar bazarların tənzimlənməsi üzrə dünya təcrübəsi”, Məşvərət jurnalı, Bakı, 2016
24. Rzayev F. “Azərbaycan Respublikasının kənd təsərrüfatı üzrə malik olduğu inkişaf potensialının qiymətləndirilməsi”, “İqtisadi İnkişaf” jurnalı, № 2, 2006
25. Niftullayev V. “Kənd təsərrüfatının iqtisadiyyatı”, Bakı: Elm, 2006, səh-360
26. Salahov S, “Aqrar sferada dövlət tənzimlənməsinin konseptual əsasları və prioritetləri”, Bakı, 2002
27. Salahov S. V “Transformasiya şəraitində aqrar iqtisadiyyatın dövlət tənzimlənməsi məsələləri”, Bakı: MMA-nın mətbəəsi, 2000, 96 s.
**28.** Süleymanov V.E. “Azərbaycanın kənd təsərrüfatı məhsullarının ixracının rəqabətə davamlılığını müəyyən edən amillər”, Maliyyə və Uçot, 2012, № 4, s. 39-44

**Xarici dildə**

29. Marie-Claire, C.S Ashfaq K. “Sustainable development law-principles, practices and prospects”, New-York: UN, 2004, 360 p

30. Matthieu De Clercq, Anshu Vats, Alvaro Biel, “Agriculture 4.0: The future of farming technology”, 2018, p. 30

31. Peter H. “Agricultural workers and their contribution to sustainable agriculture and rural development”, FAO, 2005, 91 p

32. “İnnovation in agriculture: a key process for sustainable development”, İnstitutional position paper, San Jose, May 2014Əlavə

# ƏLAVƏLƏR

**Əlavə 1.**

**Cədvəl 2. 2017 – ci ildə Azərbaycanın icmal ərzaq balansı, bitkiçilik məhsulları üzrə, ton**

| | Ehtiyatlar | | | | İstifadəçilər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | İlin əvvəlinə qalıq | İstehsal | İdxal | Ehtiyyatların cəmi | Toxum | Mal-qara və quş yemi üçün | Sənaye ehtiyyaclarına | Ərzaq məhsulu kimi | İxrac | İtkilər | İlin sonuna qalıq | İstifadələrin cəmi |
| Dənlilər üzrə | 1488341 | 2808612 | 1427086 | 5724039 | 217821 | 1510857 | 2432382 | 97261 | 1 | 274142 | 1191575 | 5724039 |
| buğda | 1025631 | 1769574 | 1274434 | 4069639 | 146964 | 503993 | 2264354 | 81972 | - | 242532 | 829824 | 4069639 |
| arpa | 349813 | 792182 | 46814 | 1188809 | 69164 | 829668 | 12013 | - | - | 30203 | 247761 | 1188809 |
| qarğıdalı | 111363 | 235669 | 97666 | 444698 | 1249 | 166143 | 152085 | 13003 | - | 592 | 111626 | 444698 |
| Vələmir | 1402 | 9355 | 1029 | 11786 | 426 | 8099 | 682 | - | - | 774 | 1805 | 11786 |
| Sair dənlilərin cəmi | 132 | 1832 | 7143 | 9107 | 18 | 2954 | 3248 | 2286 | 1 | 41 | 559 | 9107 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

**Əlavə 2.**

**Cədvəl 3. 2017 – ci ildə Azərbaycanın icmal ərzaq balansı, heyvandarlıq məhsulları üzrə, ton**

| | Ehtiyatlar | | | | İstifadəçilər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | İlin əvvəlinə qalıq | İstehsal | İdxal | Ehtiyyatların cəmi | İnkubasiya üçün | Mal-qara və quş yemi üçün | Sənaye ehtiyyaclarına | Ərzaq məhsulu kimi | İxrac | İtkilər | İlin sonuna qalıq | İstifadələrin cəmi |
| Ət və ət məhsulları | 4245 | 316827 | 57991 | 379063 | - | - | 16992 | 364291 | 665 | 1944 | 12163 | 379063 |
| Mal əti və ət məhsulları | 1543 | 132902 | 21243 | 155688 | - | - | 15418 | 150094 | 90 | 629 | 4875 | 155688 |
| Qoyun və keçi əti | 1068 | 79092 | 1973 | 82133 | - | - | - | 79194 | 339 | 402 | 2198 | 82133 |
| Quş əti və ət məhsulları | 1538 | 104362 | 26775 | 132675 | - | - | 94 | 12667 | 236 | 843 | 4929 | 132675 |
| Süd və süd məhsullarının cəmi | 4914 | 2024143 | 344018 | 2373075 | - | 24657 | 2096413 | 2317418 | 15983 | 9349 | 5668 | 2373075 |
| Yumurta, min ədəd | 8226 | 1714024 | 133 | 1722383 | 107059 | 27343 | - | 1537343 | 9194 | 8575 | 32869 | 1722383 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

**Əlavə 3.**

**Cədvəl 4. 2017 – ci ildə Azərbaycanın icmal ərzaq balansı, sənaye emalından keçmiş əsas növ ərzaq məhsulları üzrə, ton**

| | Ehtiyatlar | | | | İstifadəçilər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | İlin əvvəlinə qalıq | İstehsal | İdxal | Ehtiyyatların cəmi | Toxum üçün | Mal-qara və quş yemi üçün | Sənaye ehtiyyaclarına | Ərzaq məhsulu kimi | İxrac | İtkilər | İlin sonuna qalıq | İstifadələrin cəmi |
| Un | 494632 | 1603125 | 70155 | 2167192 | - | 25271 | 914872 | 712230 | 3607 | 30698 | 481234 | 2167912 |
| Makaron məmulatları | 2012 | 7889 | 9130 | 19031 | - | 94 | - | 15733 | 589 | 153 | 2462 | 19031 |
| Bitki yağları | 28131 | 80439 | 149623 | 258193 | - | - | 59620 | 155622 | 13122 | 1342 | 28487 | 258193 |
| İnsan qidası üçün yararlı duz | 23617 | 63619 | 10974 | 98210 | - | 9556 | - | 45336 | 14477 | 535 | 28306 | 98210 |
| Şəkər | 162580 | 238200 | 221253 | 622033 | - | - | - | 256006 | 66242 | 1053 | 298732 | 622033 |
| Çay | 2637 | 10831 | 13629 | 27097 | - | - | - | 22211 | 1735 | 81 | 3070 | 27097 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az

## Cədvəllərin siyahısı

**Cədvəl 1.** Ərzaq məhsullarının adambaşına istehlakı və özünü təminetmə səviyyəsi........ 14
**Cədvəl 5.** Bitkiçilik məhsulları ilə özünü təminetmə səviyyəsi........ 29
**Cədvəl 6.** Bitkiçilik məhsulları ilə təminatda idxaldan asılılıq səviyyəsi........ 29
**Cədvəl 7.** Heyvandarlıq məhsulları ilə özünü təminetmə səviyyəsi........ 30
**Cədvəl 8.** Heyvandarlıq məhsulları ilə təminatda idxaldan asılılıq səviyyəsi..... 30
**Cədvəl 9.** Sənaye emalından keçmiş əsas növ ərzaq məhsulları özünü təminetmə səviyyəsi........ 30
**Cədvəl 10.** Sənaye emalından keçmiş əsas növ ərzaq məhsulları ilə təminatda idxaldan asılılıq səviyyəsi........ 31
**Cədvəl 11.** Minimum istehlak səbəti üzrə əsas növ ərzaq məhsullarının illik istehlak normaları........ 31
**Cədvəl 12.** Adambaşına əsas növ bitkiçilik məhsullarının istehlakı........ 32
**Cədvəl 13.** Adambaşına əsas növ heyvandarlıq məhsullarının istehlakı........ 32
**Cədvəl 14.** Sənaye emalından keçmiş əsas növ məhsulların adambaşına istehlakı........ 33
**Cədvəl 15.** Kənd təsərrüfatı müəssisələrinin məhsul satışının rentabelliyi........ 33
**Cədvəl 16.** Fərdi sahibkar təsərrüfatlarının məhsul satış rentabelliyi........ 34
**Cədvəl 17.** Taxıl istehsalı, təmizlənmədən sonrakı çəkidə, bütün təsərrüfat kateqoriyaları üzrə........ 35
**Cədvəl 18.** Ət istehsalı, kəsilmiş çəkidə, bütün təsərrüfat kateqoriyalarında...... 35
**Cədvəl 19.** Süd istehsalı, bütün təsərrüfat kateqoriyalarında........ 36
**Cədvəl 20.** 1995-2014-cü illərdə aqrar sahə üzrə əsas kapitala yönəldilmiş investisiyalar........ 38
**Cədvəl 21.** Azərbaycanda suvarılan torpaqların şoranlaşma vəziyyəti........ 57